www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 yanvar 2025-ci il Cümə axşamı № 3 (8613) Qiymәti 60 qəpik

**Xəbər**

**Torpaqların kateqoriyası elektron qaydada dəyişəcək - problem çözülürmü...**

yazısı səh.13-də

# ERMƏNİSTANIN SON SÜLH ŞANSI - SƏRT XƏBƏRDARLIQ

Prezident Əliyevin tövsiyələrinə əməl etməmək İrəvana baha başa gələ bilər; Paşinyan ölkəsində faşizmi məhv etməsə, "Dəmir yumruq" yenə işə düşə bilər




yazısı səh.9-də

# Azərbaycanın iki müttəfiqi toqquşa bilər

Qardaş Türkiyə ilə dost İsrail Suriyada qarşıdurma vəziyyətindədir - Bakı onları barışdıra biləcəkmi?

yazısı səh.7-də

**Gündəm**

**İlham Əliyevdən mühüm mesaj və açıqlamalar**



Ötən dövrə qiymət, qarşıdakı mərhələ üçün "yol xəritəsi"

yazısı səh.5-də

**Azərbaycan liderinin Tehrandan haqlı tələbləri - əməl edəcəklərmi...**

yazısı səh.6-da

**Banklar üçün "yol xəritəsi" - kreditləşmədə yeniliklər**

yazısı səh.10-da

*Mirzoyan:*

**"Ermənilər Qarabağa necə qayıtsın, hər şey bitdi"**

yazısı səh.2-də

**Bu qocaların gözü yolda - müavinətləri niyə artmır...**

yazısı səh.3-də

**Bakalavr pilləsi ləğv edilə bilərmi - Rusiya və dünya təcrübəsi**

yazısı səh.15-də

**Azərbaycan gəmilərinin saxlanılmasının detalları - nota verildi**

yazısı səh.3-də

**Qrenlandiya uğrunda ABŞ-Fransa savaşı başlayır**

yazısı səh.8-də

**"Gəncləri seçki proseslərində iştiraka təşviq etməliyik" - partiya sədri**

yazısı səh.11-də

**Rusiya şəhərləri kütləvi dron zərbələri altında**

yazısı səh.14-də

**İlon Mask Şoltsu axmaq, Starmeri tiran adlandırdı**

yazısı səh.12-də



Maqdalena Qrono

**"Azərbaycan Avropa İttifaqının vacib tərəfdaşıdır" - xüsusi nümayəndə**

yazısı səh.8-də



**Lukaşenko yola salınır? - Belarus rəhbərinin ikibaşlı açıqlaması**

yazısı səh.12-də



*Mahmud Hacıyev:*

**"İdmançıları manipulyasiya edənlərə qarşı ciddi tədbirlər görülməlidir"**

yazısı səh.4-də



# Təyyarə qəzasında həlak olanların bank borcları silinib

**Azərbaycan Mərkəzi Bankının tövsiyəsi və Azərbaycan Banklar Assosiasiyası (ABA) və Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) təşəbbüsü ilə "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən təyyarəsinin Aktau şəhərinin yaxınlığında 25 dekabr 2024-cü il tarixində qəzaya uğraması nəticəsində həlak olan ekipaj heyətinin və sərnişinlərin banklarda və bank olmayan kredit təşkilatlarında mövcud olan kredit öhdəlikləri tam həcmdə müvafiq təşkilatların öz vəsaiti hesabına silib.**

Bu barədə ABA-dan bildirilib.

"Bütün dövrlərin sınaqlarında xalqımızın və ölkə rəhbərliyinin yanında olmuş Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları adından, ABA və AMFA olaraq, qəza nəticəsində həyatını itirmiş şəxslərin ailə üzvlərinə dərin hüznlə başsağlığı verir, yaralılara isə şəfa diləyirik" - açıqlamada bildirilib.



# Azərbaycanda yeni doğulan körpə öldü

**Zaqatalada yeni doğulan körpə ölümü baş verib.**

Yanvarın 7-də Zaqatala rayonu Gözbarax kənd sakini 1992-ci il təvəllüdlü Xanım Üzeyr qızı Didiyeva dünyaya uşaq gətirmək üçün Zaqatala Rayon Mərkəzi Xəstəxanasının (RMX) Doğum şöbəsinə müraciət edib.

X.Didiyeva qeysəriyyə əməliyyatı ilə qız uşağı dünyaya gətirib. Körpə doğuşdan bir qədər sonra ölüb.

Xanım Didiyevanın yaxınlarının məlumatına görə, bu onun üçüncü doğuşudur. Doğuşdan bir gün əvvəl o, Zaqatala RMX-də müayinə olunub və hamiləliyin normal keçməsi barədə məlumat verilib.

Ölümün dəqiq səbəbini öyrənmək üçün körpənin meyiti Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Zaqatala rayon şöbəsinə təhvil verilib.

Faktla bağlı Zaqatala Rayon Prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

Xatırladaq ki, ötən il də Zaqatalada bir neçə körpə ölümü faktı qeydə alınıb. APA




# Rusiya Zaporojeyə hücum edib, ölən və yaralananlar var

**Rusiya Silahlı Qüvvələri Ukraynanın Zaporoje şəhərinə hava hücumu edib.**

APA UNİAN-a istinadən xəbər verir ki, hücum zamanı sənaye infrastrukturları hədəf alınıb.

Hücum nəticəsində bir nəfərin öldüyü, altı nəfərin isə yaralandığı qeyd edilir.

# Mirzoyan: "Ermənilər Qarabağa necə qayıtsın, hər şey bitdi"



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ermənilərin Qarabağa qayıtması məsələsi ilə bağlı yerli ictimaiyyət üçün bədbin açıqlamalar verib.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu barədə o, mətbuat konfransında danışıb.

"Bizim hakimiyyət orqanlarımız 2020-ci il müharibəsindən sonra Qarabağ ermənilərinin orada yaşamağa davam etmələri və müəyyən hüquqlara malik olmaları üçün hər cür səy göstərdilər. Bu səylər yerli separatçı hakimiyyət (separatçı sözü əlavədir - red.) tərəfindən düzgün dəyərləndirilmədi.

Qarabağa qayıtmaq məsələsi həm siyasətçilər, həm də media tərəfindən təkrarlanır. Mənə deyə bilərsinizmi ki, necə və hansı şərtlərlə qayıtmaq olar? Azərbaycan vətəndaşları kimi? Belə bir ehtimal var. Bəs məktəbdə erməni dilini öyrənən Azərbaycan vətəndaşları kimi necə? Belə bir fürsət də var idi. Sonra nə olacaq?", - deyə Ararat Mirzoyan bildirib.

Bununla bağlı danışıqlar olub-olmadığına Mirzoyan mənfi cavab verib. Onun sözlərinə görə, belə bir perspektiv Sofiyada görüşün baş tutmamasından sonra artıq aradan çıxıb.

"İndi hər şeyin bitdiyi, Qarabağda erməninin qalmadığı bir vaxtda soruşursunuz ki, onlar necə qayıda bilər. Təəssüf ki, bu hissə haqqında yaxşı bir şey deyə bilmərəm. Hökumətimizin siyasəti Qarabağdan gələn soydaşlarımızın əsas ehtiyaclarını təmin etməkdir", - deyə erməni nazir bildirib.

❑ **Musavat.com**

# Azərbaycan beynəlxalq axtarışda olan Hindistan vətəndaşını Monakoya təhvil verdi



**Azərbaycan beynəlxalq axtarışa verilən şəxsi Monakoya təhvil verib.**

APA xəbər verir ki, bu barədə Baş Prokurorluğun mətbuat xidmətinin məlumatında deyilir.

Monako Knyazlığının hüquq-mühafizə orqanları tərəfindən iqtisadi sahədə cinayətlər törətməkdə təqsirləndirilərək beynəlxalq axtarışa elan edilmiş 1991-ci il təvəllüdlü Hindistan Respublikasının vətəndaşı Rathore Devanshunun verilməsinə dair Monako Knyazlığının səlahiyyətli orqanının vəsatəti baxılması üçün Baş Prokurorluq tərəfindən Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qeyd olunan şəxs 2024-cü ilin iyun ayında ölkəmizdə müəyyən edilərək barəsində həbs-qətimkan tədbiri seçilib.

"Ekstradisiya haqqında" Avropa Konvensiyasına və ona əlavə protokollara əsasən məhkumun ekstradisiyası haqqında qərar qəbul edilərək Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Monako Knyazlığının səlahiyyətli orqanlarına təhvil verilib.

## Serbiya Rusiya ilə silah müqavilələrinin bir qismindən imtina etdi

**Serbiya tərəfi Rusiya Federasiyası ilə silah təchizatına dair imzalanan müqavilələrin bir qismindən imtina edib.**

APA-nın xəbərinə görə, bu barədə yerli "Novosti" nəşrinə müsahibəsində Serbiya ordusunun Baş Qərargah rəisi Milan Moysiloviç açıqlama verib.



## Səhiyyə Nazirliyi əhaliyə çağırış etdi

**Peyvədlənmə epidemik hal olmazdan öncə aparılmalıdır.**

Musavat.com xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib.

O qeyd edib ki, qripə qarşı peyvənd təhlükəsiz preparatdır, həm azyaşlılar, həm də hamilələr peyvənd oluna bilər: "Qrip bütün infeksion xəstəliklərin 90 faizini təşkil edir. İnsan ömrünün, orta hesabla, bir ili xəstə halda keçir. Ağır formalı infeksiyalar - qrip bəzən insan həyatına son qoya bilər. Hər kəs vaxtında peyvənd olunmalıdır ki, bu cür problemlərlə qarşılaşmasınlar".



## 16 148 nəfərin namizədliyi qeydə alınıb

**Bələdiyyə seçkiləri üçün 16 min 148 nəfərin namizədliyi qeydə alınıb.**

Musavat.com xəbər verir ki, bununla bağlı Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov qurumun bugünkü iclasında məlumat verib.

Qeyd edək ki, yanvarın 29-da Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək.

# Bu qocaların gözü yolda - müavinətləri niyə artmır...

## Əmək pensiyalarının ödənilməsi xərcləri üçün 7 milyard 210 milyon 530 min manat nəzərdə tutulub; pensiya artımları yanvarın 1-dən hesablanır, amma artımlar fevral ayında ödəniləcək

**Ölkədə ilbəil pensiya və digər sosial ödənişlər artırılır. 2025-ci il yanvarın 1-dən də bir sıra kateqoriyalar üzrə bu ödənişlərin məbləği çoxaldılıb. Ancaq yaşlı nəslin böyük bir kəsiminin gözü illərdir yollardadır.**

Bu təbəqə xüsusilə sovetlər dağılandan, müstəqillik əldə edildikdən sonrakı çətin dönəmlərdə işsiz qalan, buna görə də 25 illik iş stajı qazana bilmədiyi üçün əmək pensiyasına çıxa bilməyən şəxslərdir. Onlar illərdir ki, minimum yaşayış həddindən də xeyli aşağı - cəmi 220 manat qocalığa görə müavinət alırlar. Bu tip yaşlıların güzəranı daha çətindir. Onların sayı elə də çox deyil, ümumi pensiyaçıların təxminən 7-8 faizini təşkil edirlər. Bir çoxları isə 25 illik stajından cəmi 6 ay, 1 il kəsiri olanlardır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi məlumatına əsasən, cari ildə əmək pensiyalarının ödənilməsi xərcləri üçün 7 milyard 210 milyon 530 min manat nəzərdə tutulub ki, bu da keçən il müvafiq istiqamətdə ayrılan vəsaitdən 710 milyon manat və ya 11 faiz çoxdur.

Azərbaycanda minimum əməkhaqqının artırılması ilə bərabər müəyyən sahələrdə çalışan şəxslərin də əməkhaqqının da artırılması nəzərdə tutulub. Report.az xəbər verib ki, bunu **Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Himalay Məmişov** DOST TV-nin efirində deyib. Onun sözlərinə görə, ümumilikdə bu islahatdan 700 mindən artıq vətəndaş yararlanacaq: "Onlardan 400 mini dövlət sektoru, 300 mini isə özəl sektorda fəaliyyət göstərən şəxslərdir. Azərbaycanda minimum əməkhaqqının 400 manat müəyyən edilməsi dalğavari effekt yaradaraq digər üst pillələrdə olan şəxslərin əməkhaqlarının artırılmasına təsirini göstərir".

**O əlavə edib ki, fevralın 1-dən minimum pensiyalar da 320 manata çatdırılır və bu, 14 % artım deməkdir**: "Yanvarın 1-dən əmək pensiyaları əvvəlki ildə orta aylıq nominal əməkhaqqının orta tempinə uyğun indeksləşdirilir. Bu indeksləşmə də nəzərə alındıqda minimum əməkhaqqının artırılması, pensiyaların indeksləşdirilməsi 1 milyon 100 min insanı əhatə edəcək".

**Sədr məlumat verib ki, müavinət və təqaüdlərin artırılması ilə böyük kəsimi əhatə edən islahat nəzərdə tutulub**: "Proqnozlarımıza görə, 1 milyondan artıq insan bundan yararlana biləcək. 2018-ci ildə müavinət və təqaüdlərin maliyyələşdirilməsi xərci 430 milyon manat civarında idi. Bu rəqəm 2024-cü ilin sonunda 2 milyard manata çatıb. Burada 5 dəfəlik artım var".



H.Məmişov həmçinin deyib ki, tələbələrə dövlət dəstəyinin olması da daim diqqət mərkəzindədir, təqaüdlərin də artırılması məsələsi qarşıya qoyulub.

**Milli Məclisin deputatı Vüqar Bayramov isə mətbuata açıqlamasında bildirib ki, mövcud qanunvericiliyə əsasən, pensiyalar hər il yanvar ayında əvvəlki ildə orta aylıq əməkhaqqında artım faizinə uyğun olaraq indeksasiya olunaraq artırılır:** "Hələlik dəqiq artım faizi bəlli olmasa da, artımlar məhz bu aydan hesablanır. 2024-cü ilin ilk 10 ayının yekunlarına əsasən, ölkə üzrə orta aylıq əməkhaqqı təxminən 8 faiz artıb. Dəqiq rəsmi göstərici isə gələn ayın əvvəllərində elan ediləcək. Qeyd edim ki, 2024-cü ildə orta aylıq əməkhaqqında artımla bağlı rəsmi statistika fevral ayının ilk 10 günündə bəlli olduğu üçün indeksasiya da məhz o zaman aparılacaq. Pensiya artımları yanvarın 1-dən hesablanır, amma artımlar fevral ayında ikisi birlikdə ödəniləcək. Deməli, pensiyaçılar artımları gələn aydan etibarən alacaqlar. Amma yanvar ayı üçün hesablanmış artım da fevral ayının pensiya məbləğinə əlavə olunacaq. İndeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" Qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq, əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq. Minimum pensiya məbləği isə gələn aydan 280 manatdan 320 manata çatdırılacaq. Bu o deməkdir ki, minimum pensiya alanlar artıq gələn aydan artırılmış məbləği alacaqlar".

**Millət vəkili qeyd edib ki, bu aydan etibarən ehtiyac meyarı 285 manata çatdırılıb**: "Ehtiyac meyarının artırılması ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşlarımızın aldığı yardım məbləğinin bu ildən artmasına səbəb olacaq. Bu, 900 manat gəliri olan və 5 üzvü olan ailədə aylıq sosial yardım məbləğinin orta hesabla 450 manatdan 525 manatadək yüksəlməsi deməkdir. Artımların ödənilməsinə gəldikdə isə yeni ehtiyac meyarı ünvanlı sosial yardım proqramı çərçivəsində yeni yardım almağa başlayanlara şamil olunacaq. Yəni vətəndaşın müraciətinə bu ay müsbət cavab verilib ona yardım ödənilməsi ilə bağlı qərar veriləcəksə, o artırılmış məbləğlə yardımı bu aydan alacaq. Azərbaycan Prezidentinin imzaladığı 23 dekabr 2024-cü il tarixli sənədə əsasən, Nazirlər Kabineti sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini üç ay müddətində dövlət başçısına təqdim etməlidir. NK tərəfindən təkliflər təqdim olunduqdan sonra müavinət və təqaüdlərin artırılması ilə bağlı sənəd imzalanacaq. Bununla da müavinət və təqaüdlərin artırılması həyata keçiriləcək".

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yaşa görə müavinətin məbləği 220 AZN-dir:** "Bu hədd mütəmadi olaraq artırılır. Yəqin ki, bu hədd də artar. Çox güman ki, hesablamalar aparılır. Bu o şəxslər ki, 25 illik sığorta stajları yoxdur, 2006-cı ildən 2018-ci ilə kimi şərti olaraq qeyd etsək, heç olmasa, bir ay, bir gün də işləməyiblər, ya da ki, yığım kapitalları yoxdur. Bu kateqoriyaya aid olan şəxslərin pensiyası dövlət tərəfindən ödənir. Əmək pensiyası isə Dövlət Sosial Müdafiə Fondu tərəfindən ödənilir. Buna görə də əmək pensiyasına görə ödənişin artırılması o demək deyil ki, yaşa görə müavinətdə də artım olmalıdır. Çünki məbləğ ayrı-ayrı mənbələrdən ödənilir".

**Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**



## Azərbaycan gəmilərinin saxlanılmasının detalları - nota verildi

**"Caspian Marine Services B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialı gəmilərin Eritreya dövlətinin ərazi sularında saxlanılması ilə bağlı açıqlama yayıb.**

Musavat.com xəbər verir ki, şirkətdən verilən məlumata görə, "Caspian Marine Services B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialı tərəfindən istismar olunan "CMS Pəhləvan", "CMS İgid" və "CMS-3" gəmiləri sahibkarlıq fəaliyyəti çərçivəsində Əbu-Dabi limanına yola düşmüş və müəyyən edilmiş marşrut üzrə səfərin Süveyş kanalından keçməklə həyata keçirilməsi nəzərdə tutulub:

"Qeyd edək ki, gəmilərin riskli piratlıq qaynar nöqtələrdən keçməsi nəzərdə tutulduğu üçün təhlükəsizliyin təmin edilməsinə ehtiyac yaranıb və bu məqsədlə gəmilərin mühafizəsini təmin etmək sahəsində ixtisaslaşmış müvafiq şirkət ilə müqavilə bağlanılaraq gəmilərə hər bir gəmiyə 2 nəfər olmaqla hərbiləşdirilmiş mühafizə qrupları ilə təmin edilib.

07.11.2024-cü il tarixdə gəmilər Eritreya dövlətinin dəniz sahil xəttindən keçərkən hava şəraiti səbəbindən Eritreya dövlətinin ərazi sularına girməklə hərəkəti davam etdirmək qərarı verilmişdir və gəmi kapitanları tərəfindən ərazi sularına daxil olmaqla bağlı məlumatın çatdırılması üçün Eritreyanın təhlükəsizlik və sahil mühafizəsi qurumları ilə VHF-16 beynəlxalq kanalı vasitəsilə əlaqə saxlanılmasına çalışılıb, lakin cavab alınmayıb.

Noyabrın 7-si yerli vaxtla saat 10:06 radələrində gəmidən əldə etdiyimiz hesabata əsasən, yuxarıda adı çəkilən hər üç gəminin 13°23'N, 042°39'E koordinatlarında Eritreya hərbi donanması xidməti tərəfindən saxlanıldığı məlum olmuşdur. Belə ki, Eritreya hərbi donanması xidmətinin tələblərinə uyğun olaraq gəmilər hərəkət kursunu dəyişərək Eritreya hərbi donanmasının təyin etdiyi məntəqəyə gəlmişlər və lövbərə dayandıqdan sonra hərbi donanmanın nümayəndələri tərəfindən yoxlama prosesinə cəlb ediblər.

Qeyd edək ki, sözügedən gəmilərdə 18 Azərbaycan vətəndaşı və 6 əcnəbi vətəndaş olmaqla, ümumilikdə 24 nəfər mövcuddur.

Qeyd olunan məsələ ilə əlaqədar kapitanlar tərəfindən məlumat daxil olan kimi şirkətimiz tərəfindən elə həmin gün, 07.11.2024-cü il tarixdə Dövlət Dəniz və Liman Agentliyinə rəsmi qaydada müraciət edilib. Daha sonra isə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə müvafiq qaydada müraciətlər olunmuş və məsələnin həlli ilə əlaqədar adı çəkilən qurumlar ilə sıx əməkdaşlıq çərçivəsində bütün işlər görülüb.

Eyni zamanda qeyd edək ki, gəmilərin sığortalanmasını həyata keçirən sığorta şirkətinin səlahiyyətli nümayəndələrinə və Böyük Britaniyanın müvafiq hüquq şirkətlərinə də müvafiq müraciətlər edilmiş və məsələnin həllinin tezləşdirilməsi üçün adı çəkilən təşkilatlar da əməkdaşlığa cəlb edilib.

Aparılan danışıqların nəticəsi olaraq, Eritreya dövlətinin müvafiq qurumları ilə məsələnin həllinə nail olmaq üçün şirkətimiz tərəfindən səlahiyyətli nümayəndələr təyin edilib və qeyd edək ki, hazırda yoxlamanın yekunlaşması və gəmilərin sərbəst buraxılması üçün müvafiq sənədləşmə prosesi tamamlanmaq üzrədir.

Qeyd edək ki, şirkətin səlahiyyətli nümayəndələri heyət üzvləri ilə daim sıx əlaqədədir və heyətin ərzaq təchizatı, eləcə də digər təchizat məsələlərində hər hansı problem mövcud deyil. Həmçinin heyət üzvlərinin öz yaxınları ilə vaxtaşırı əlaqə saxlaya bilməsi üçün bütün texniki imkanlar şirkət tərəfindən təmin edilib".

Azərbaycan üç gəmi və heyətinin girov götürülməsi ilə bağlı Eritreyaya nota verib.

Musavat.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

Vurğulanıb ki, zəruri tədbirlərin görülməsi məqsədilə Eritreyanın ərazi sularına girişin beynəlxalq hüquq normaları ziddiyyət təşkil etmədiyinə dair hüquqi əsaslandırma Azərbaycanın Efiopiya və Rusiyadakı səfirlikləri vasitəsilə qarşı tərəfə müvafiq nota vasitəsilə çatdırılıb.

Bundan başqa, Eritreya Xarici İşlər Nazirliyində, Eritreyanın Türkiyə və Moskvadakı səfirliklərində müvafiq görüşlər keçirilib.

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

**Azərbaycanda idmana və idmançılara xüsusi diqqət və qayğı göstərildiyi halda, bir sıra idmançıların vaxtaşırı bu etimadı doğrultmadığının şahidi oluruq. Həm idman arenalarında uğursuz nəticələr göstərirlər, həm də bəziləri kriminallaşır.**

Vaxtaşırı belə xəbərlər eşidirik ki, idmançıların adları kriminallarda, "razborkalarda", pul tələb etmədə, davalarda keçir.

Son olaraq Bakıda bir dəstə idmançı xuliqanlıq zəminində DSX zabitini döyüb.

Bu insidenti törətməkdə ittiham olunan bir qrup idmançı barəsində istintaq orqanı tərəfindən təqdimata baxılıb.

Xətai Rayon Məhkəməsində hakim Fuad Axundovun sədrliyi ilə keçirilən iclasda istintaq orqanının təqdimatı üzrə qərar qəbul olunub.

Qərara əsasən, təqdimat təmin edilib, saxlanılan Elnur Həmidov və Elçin Hüseynov barəsində 3 ay müddətində həbs-qətimkan tədbiri seçilib.



# İdmançıları kriminallaşdıran səbəblər - açıqlama

## Mahmud Hacıyev: "Onları manipulyasiya edən şəxslərə qarşı ciddi tədbirlər görülməlidir"



Onlar Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə ittiham edilir.

Qeyd edək ki, yanvarın 4-də saat 03 radələrində paytaxtın Xətai rayonunda bir qrup idmançı xuliqanlıq zəminində insident törədib.

İdmançıların DSX mayoru, kikboksinq üzrə Əməkdar məşqçi və Əməkdar idman ustası Fuad Zeynalova hücum etdikləri bildirilir.

Fakta bağlı idmançılardan Elnur Həmidov, Emil Hümbətov, Elçin Hüseynov, Elvin Məmmədov, Musa Əhmədov və Ramal Aslanov polis tərəfindən saxlanılıb.

Hadisənin sifarişçisinin Kikboksinq Federasiyasının I vitse-prezidenti Ramal Aslanov olduğu açıqlanıb.

Qeyd edək ki, Ramal Aslanov dünən sərbəst buraxılıb.

İdmançıların bəziləri niyə kriminallaşır? Dünyada da belədirmi? Bunun qarşısını necə almaq olar? Məsuliyyət kimindir?

Sosioloqların fikrincə, bəzi idmançıların kriminallaşmasının səbəbləri aşağıdakılardır:

**1. Sosial-iqtisadi amillər:** İdmançılar adətən gənc yaşlarından məşq etməyə başlayırlar. Bu, onların akademik biliklərini və sosial bacarıqlarını tam inkişaf etdirməyə imkan vermir. Karyeraları bitdikdən sonra isə maliyyə problemləri və sosial dəstəksizlik onları cinayətə sürükləyə bilir.

**2. Psixoloji təzyiqlər**: Böyük yarışlarda qələbə və uğur üçün yüksək gözləntilər idmançıların psixoloji gərginlik yaşamasına səbəb ola bilər. Bunun nəticəsində, bəziləri dopinq istifadəsinə və ya qeyri-qanuni yollarla nəticələrini yaxşılaşdırmağa çalışırlar.

**3. Asılılıq və narkotiklər**: Yarışlardan sonra stresi azaltmaq üçün bəzi idmançılar spirtli içkilərə və ya narkotik maddələrə meyillənirlər. Bu isə sonradan kriminallaşmaya səbəb ola bilir.

**4. Dostlar və mühit təsiri:** Peşəkar idmanda bəzi idmançılar ətraflarında olan dostların və ya menecerlərin təsiri ilə qeyri-qanuni fəaliyyətlərə qoşulurlar. Xüsusilə idman dünyasında mafiyalaşmış qrupların təsiri bu halları daha da artırır.

Kriminallaşma halları dünyanın bir çox ölkəsində müşahidə olunur. Məsələn, ABŞ-da məşhur idmançılar arasında narkotik istifadəsi və silahlı insidentlərə qarışanların sayı az deyil.

Rusiyada dopinq qalmaqalları və qadağan olunmuş maddələrin istifadəsi yayğındır.

Braziliyada futbolçuların bəzi hallarda mafiya ilə əlaqəli olduqları məlumdur.

İtaliyada isə məşhur idmançılar arasında mafiya bağlantıları araşdırılır.

Bu hallar göstərir ki, problem qlobal xarakter daşıyır və fərqli ölkələr bu məsələnin həllində müxtəlif strategiyalar tətbiq edir.

Mütəxəssislər qeyd edir ki, idmançıların kriminallaşması kompleks bir problemdir və yalnız cəza tədbirləri ilə həll edilə bilməz. Bu problemin aradan qaldırılması üçün təhsil, psixoloji dəstək, sərt nəzarət və profilaktik tədbirlər mühüm rol oynayır. Cəmiyyətin və idman təşkilatlarının birgə fəaliyyəti nəticəsində bu problem minimuma endirilə bilər.

**Mövzu ilə bağlı sabiq polis rəisi, hüquqşünas Mahmud Hacıyev "Yeni Müsavat"a danışıb:** "Hesab edirəm ki, bu məsələyə birtərəfli yanaşmaq doğru olmazdı. İnsan faktoru olan yerdə kriminal da, cinayət olacaq. Adi insanlar arasında da xarakter baxımından kriminala meyilli olanlar var, eləcə də idmançılar arasında. Bu onların intellektual səviyyəsindən, böyüdüyü mühitdən, ailə tərbiyəsindən, ətrafından valideynləri, eləcə də məşqçisindən asılı ola bilər.

Bir çoxları idmançıların fiziki imkanlarından, xasiyyətindən istifadə edərək, onları kriminala cəlb edirlər. Yəni idmançıların cinayətə cəlb olunmasında təkcə onların şəxsi zəiflikləri deyil, həm də onları yönləndirən şəxslərin təsiri böyük rol oynayır. İdmançılar bəzən mülayim xasiyyətləri və itaətkar təbiətləri səbəbilə cinayətkar qrupların təzyiqlərinə məruz qalırlar. Onlar öz fiziki imkanlarını qanunsuz məqsədlər üçün istifadə etməyə vadar edilirlər.

Bildiyim qədər son baş verən hadisədə idmançıları bu işə cəlb edən, yönəldən şəxs olub. Bu baxımdan hesab edirəm ki, idmançıları manipulyasiya edən şəxslərə qarşı ciddi tədbirlər görülməlidir. Həm qanunvericilik, həm də hüquq-mühafizə orqanları bu sahədə daha sərt addımlar atmalıdır".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Ağadadaş Ağayev dalaşdığı Nurəddin Cəlilovla barışdı




**Xalq artisti Ağadadaş Ağayevlə "MedEra Hospital"ın mühafizəçisi ("Vətən-N Mühafizə" MMC-nin işçisidir) Nurəddin Cəlilov barışıblar.**

Lent.az xəbər verir ki, hər iki tərəf barışıq sazişi imzalamaq üçün Bakı şəhəri 44 saylı notariat ofisinə gəliblər.

Xalq artisti açıqlamasında bildirib ki, qarşı tərəflə bütün məsələlərdə ortaq məxrəcə gəliblər: "Notariusda gəlmişik barışıq üçün. Artıq düşmənçiliyə əsas yoxdur. Hər şey qaydasındadır".

Ağadadaş Ağayevin vəkili Asim Abbasov qeyd edib ki, tərəflər öz aralarında barışıq əldə ediblər indi isə bu barışığı rəsmiləşdirmək üçün buradadırlar. Vəkilin sözlərinə görə, rəsmiləşdirilən barışıq ərizəsi Binəqədi Rayon Məhkəməsində keçiriləcək prosesdə təqdim ediləcək.

"MedEra Hospital"ın mühafizəçisi Nurəddin Cəlilov açıqlamasında Ağadadaş Ağayevin pərəstişkarı olduğunu və ondan üzr istədiyini deyib: "Xalqdan və Ağadadaş Ağayevdən üzr istəyirəm. Belə şey olmamalı idi. Artıq barışmışıq və heç bir problem yoxdur".

Xalq artisti Ağadadaş Ağayevin ittiham olunduğu cinayət işi üzrə dünən növbəti məhkəmə prosesi də keçirilib.

APA xəbər verir ki, Binəqədi Rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin vəkili Asim Abbasov məhkəməyə barışıq əldə olunması ilə bağlı natoriusda təsdiq olunmuş ərizəni təqdim edib.

Daha sonra zərərçəkən şəxslər sərbəst ifadə verib.

Zərərçəkən Nəzakət Paşayeva sərbəst ifadəsində bildirib ki, heç bir şikayəti və tələbi yoxdur: "Artıq barışıq əldə olunub".

Prosesdə zərərçəkən qismində tanınan Nurəddin Cəlilov da "Biz bu gün barışmışıq. Heç bir şikayət və təklifim yoxdur", - deyə bildirib.

Daha sonra şahidlər dindirilib.

Məhkəmə yanvarın 16-da davam etdiriləcək.

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

# Prezidentdən mühüm mesaj və açıqlamalar

## Ötən dövrə qiymət, qarşıdakı mərhələ üçün "yol xəritəsi"

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibə verib. Prezident bildirib ki, keçən il iqtisadi inkişaf baxımından yenə də uğurlu il olub. Azərbaycanın iqtisadiyyatı inkişaf edib. İnkişaf templəri, bugünkü dünyanın mənzərəsinə nəzər salsaq, müsbət sayıla bilər.**

Yəni ümumi daxili məhsul 4 faizdən çox artıb. Prezident qeyd edib ki, əslində bizim üçün əsas göstərici qeyri-neft sektorunun inkişafıdır: "Çünki bildiyiniz kimi, biz son vaxtlar neft hasilatında tənəzzüllə üzləşmişdik və hesab edirəm ki, aparılan danışıqlar, göstərilən səylər nəticəsində artıq bu tənəzzülə son qoyulacaq və neft hasilatı sabit qalacaq. Beləliklə, neft hasilatının azalması bundan sonra ümumi daxili məhsula mənfi təsir göstərməyəcək. Ona görə biz ümumi iqtisadi göstəricilərə nəzər saldıqda, ilk növbədə, qeyri-neft sektorunun parametrlərini nəzərə alırdıq. Burada da inkişaf daha uğurludur, 6 faizdən çox artıbdır..."

Dövlət başçısı deyib ki, il ərzində valyuta ehtiyatlarımız təqribən 5 milyard dollardan çox artıb və bu gün bu rəqəm 72 milyard dollara bərabərdir. Əhalisi 10 milyon olan ölkə üçün bu, çox böyük göstəricidir.

### Valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir...

Prezident İlham Əliyev COP29 böyük bir çağırış və böyük imkan olduğudan da danışıb və qeyd edib ki, vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi...

**COP29-a hazırlıq işlərindən ətraflı danışan Prezident deyib ki, gözləmədiyimiz problem COP29-u siyasi motivlər səbəbindən boykot etmək cəhdləri idi:** "Bu, olduqca gözlənilməz idi. Hesab edirəm ki, bu tədbirə ev sahibliyi etmiş heç bir ölkə bu dərəcədə müqavimətə rast gəlməmişdir. Lakin biz bunun da öhdəsindən gələ bildik. Boykot uğursuz oldu. Baxmayaraq ki, siz də qeyd etdiyiniz kimi, bəzi ölkələr, xüsusilə də Fransa əlindən gələni edirdi ki, tədbiri gözdən salsın. Həmkarlarımdan aldığım məlumata görə, Fransa prezidenti şəxsən onlara zəng edərək Bakıya getməməyi tövsiyə edirmiş. Yəni liderlərin buraya səfər etmələrinin qarşısını almaq üçün hətta belə vasitəyə də əl atılmışdır. Lakin bu da uğursuz oldu. Səksən dövlət və hökumət başçısı Bakıya səfərə gəldi və bu, bir daha Azərbaycanın etibarlı tərəfdaş olduğunu nümayiş etdirdi..."

**İlham Əliyev vurğulayıb ki, çətinliklərə və əngəllərə baxmayaraq, təşkilatçılıq baxımından COP29 həqiqətən də uğur hekayəsi oldu:** "Nəticələrə gəldikdə, çoxları bunu Bakı Nailiyyəti adlandırır və mən bununla razıyam. Çünki təqribən 10 il ərzində tərəflər karbon bazarı ilə bağlı razılığa gələ bilmirdi və COP-un ilk günlərində artıq uğur əldə edildi - karbon bazarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə razılıq əldə edildi. Bu, əhəmiyyətli uğur idi və hər kəs bundan məmnun qaldı. Yəni on il ərzində razılaşdırıla bilinməyən məsələ Bakıda öz həllini tapdı..."

Prezident onu da deyib ki, ötən il D-8-ə üzvlük növbəti



uğurlu addım oldu. Çünki Azərbaycanın bu təşkilata qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir. Artıq bütün göstərişlər verilib ki, Azərbaycan bu təşkilatda fəal olsun və öz töhfəsini verə bilsin...

Yeni dünya nizamının formalaşdırılması prosesinin getdiyindən danışan ölkə başçısı deyib ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq. İkinci Dünya müharibəsindən sonra yaranmış sistem artıq öz potensialını itirib. Təbii olaraq, bu boşluqlar daha da genişlənəcək və burada yeni aktorun, yeni, ciddi oyunçunun ciddi gündəliklə daxil olması zərurətdir: "Məsələn, biz hesab edirik ki, Türk Dövlətləri Təşkilatı dünya miqyasında ciddi güc mərkəzinə çevrilə bilər. Çünki burada geniş coğrafiya, insan resursları, təbii sərvətlər, nəqliyyat-kommunikasiya xətləri və birlik vardır. Hesab edirəm ki, D-8 də bu boşluğu doldura bilər..."

**Prezident İlham Əliyev deyib ki, ötən il Qazağın 4 kəndinin Azərbaycana qaytarılması əslində dialoq deyil, monoloq nəticəsində baş verdi. Belə ki, Ermənistanla onilliklər ərzində dialoqun alınmaması aydındır. Ermənistanın işğalçı siyasəti hər hansı dialoqu nəzərdə tutmurdu, onlar danışıqlar formatından işğalı davam etdirmək üçün pərdə kimi istifadə edirdilər:** "Düşünürəm ki, Ermənistanı könüllü surətdə, belə desək, könüllü-məcburi şəkildə bu kəndləri qaytarmağa vadar edən bir neçə amil var. Birincisi, Vətən müharibəsi və onun nəticələridir. İkincisi, antiterror əməliyyatı. Zənnimcə, o, erməni rəhbərliyinin onlarla birlikdə Azərbaycana qarşı duracağı ilə bağlı bütün illüziyaları artıq yox etməli idi. Mənim Qazağın dörd kəndi ilə bağlı son tələbim Ermənistanın baş naziri qarşısında təxminən bir il əvvəl qoyulmuşdu, ötən ilin fevralında. Bu mövzu İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra daim gündəlikdə olub. Buna qədər onun heç bir mənası yox idi. Belə ki, işğalla bağlı əsas məsələ həll olunmamış qalırdı. Amma üçtərəfli Bəyanat imzalandıqdan dərhal sonra, hətta onun imzalanmasına qədər bu mövzu həmişə gündəlikdə durub və hətta deyərdim ki, üçtərəfli bəyanatın bağlanması şərtlərinin razılaşdırılması zamanı Qazax rayonunun işğal olunmuş kəndləri mövzusu da bizim tərəfimizdən qaldırılmışdı. Amma həmin vaxt müəyyən səbəblər üzündən bunu etmək mümkün olmadı, lakin bilirdik ki, bütün hallarda biz ona nail olacağıq və nail olduq...

Beləliklə, bunu, həmçinin təkcə delimitasiya üzrə deyil, həm də sərhədin demarkasiyası işində yaxşı ilk addım hesab edirəm. Zənnimcə, bu, elə bir nadir hadisədir ki, delimitasiya və demarkasiya demək olar ki, eyni vaxtda həyata keçirilir.

Beləliklə, biz bu məsələdə ədalətə nail olduq, ərazilərimizi bərpa etdik. İndi mənim tərəfimdən artıq həmin kəndlərə mütəxəssislərdən ibarət qrup ezam olunub. Orada erməni yaşayış məntəqələrinə yaxınlıq məsələsi və eskalasiya olacağı təqdirdə müəyyən təhdidlər var. Ona görə də mən tapşırıq verdim ki, bu kəndlərin sakinləri üçün mənzil fondunun tikintisi məqsədilə daha çox müdafiə olunan yer seçilsin, onların təhlükəsizliyi təmin edilsin. Çünki belə bir təcavüzkar qonşumuz olduğu üçün biz, ilk növbədə əhalimizin təhlükəsizliyi haqqında düşünməliyik".

**Ermənistanda gedən silahlanma prosesinin Cənubi Qafqaz üçün yeni təhdid amili olduğunu vurğulayan Prezident qeyd edib ki, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişlər. Ona görə yox ki, durmaq istəmirlər, sadəcə olaraq, Azərbaycan bu imkanları verməyəcək... Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz bunu istəmirik. Biz sülh istəyirik. Biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın:** "Ancaq görürük ki, Ermənistanın həm özü, həm onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir. Müstəqil Ermənistan dövləti əslində faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar. İndi baxın, Ermənistanın birinci prezidentinin irqçi və faşist açıqlamaları nə dərəcədə eybəcərdirsə, bir o qədər də təhlükəlidir. O, etnik təmizləməni bir qürur mənbəyi kimi qələmə verir, azərbaycanlıların öz tarixi dədə-baba torpaqlarından qovulması ilə öyünür... Belə bir faşist dövlətlə biz qonşuyuq və faşizm təhlükəsi sovuşmur. Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur..."

**İlham Əliyev bildirib ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası bizim üçün hərbi məsələlərlə bərabər ən vacib prioritetlərdən biridir. Bu il ən azı 4 milyard manat ayrılacaq. Amma mən hesab edirəm ki, biz daha çox vəsaiti səfərbər edə bilərik. Biz üç il ərzində 10 yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytara bilmişik və artıq mətbuatda da bu gedib. On mindən çox köçkün artıq evlərlə təmin edilib və orada yaşayır. Bütövlükdə 30 minə yaxın insan orada yaşayır, müxtəlif vəzifələrdə çalışırlar, inşaatda, dövlət işlərində və digər sahələrdə:** "Bu il üçün bizim planlarımızda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaqdır...

Qarabağ və Şərqi Zəngəzurdakı bütün yaşayış məntəqələri vahid baş plan əsasında qurulur. Bu, bir nümunə olacaq. Sonra biz bunu ölkəmizin digər bölgələrinə də tətbiq edəcəyik. Yəni orada həm idarəetmə, həm infrastruktur, həm də yaşıl enerji layihələri bütün ölkəni əhatə edəcək..."

Prezident İlham Əliyev Suriyada dəyişikliklər baş verməsindən şad olduğunu söyləyib və deyib ki, bu münasibətlə Türkiyə ilə Suriyanın yeni hökuməti arasında mövcud olan əlaqələr bizi də çox sevindirir. Çünki Suriya Türkiyə ilə həmsərhəd olan ölkədir və hər bir ölkə öz sərhədlərinin kənarında vəziyyəti sabit görmək istəyir. O cümlədən terrordan, PKK terrorundan əziyyət çəkən Türkiyə haqlı olaraq öz sərhədlərinin hüdudlarından o biri tərəfdə terrorun ləğv edilməsini tələb edir və nəinki tələb edir və buna nail olur: "Eyni zamanda bizim Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin oraya göndərilməsi də Türkiyənin dəstəyi ilə olub. Yəni biz istəyirik, burada öz töhfəmizi verək ki, Türkiyənin heç olmasa bu sərhədində terrora son qoyulsun və hesab edirəm ki, bu, çox ciddi geosiyasi dəyişiklik olacaq, böyük coğrafiyada sülhün, sabitliyin, əməkdaşlığın bərqərar olmasına gətirib çıxaracaq. Təbii ki, Türkiyənin bütün digər sərhədlərində də terrorçuluğa yer olmamalıdır. Biz də Türkiyənin müttəfiqi kimi hər zaman istənilən formada onların yanındayıq və bunu Türkiyə tərəfi bilir..."

**Prezident Bakının tıxac problemi barədə də fikirlərini ifadə edib:** "...Amma indi biz görürük ki, yenə də nəqliyyat vasitələrinin sayı artır, insanlar daha çox maşın alır, iqtisadi fəallıq artır. Yenə də şəhər tıxaclarda boğulmağa başlamışdır. Ona görə mənim tərəfimdən, o cümlədən bu məsələ də tapşırıq kimi verildi və indi baş plan faktiki olaraq hazırlanıb. Burada avtobus nəqliyyatını metro nəqliyyatı ilə uzlaşdırmaq məsələləri dayanır. Biz son vaxtlar bir neçə metro stansiyasını istifadəyə verdik. Amma bu, kifayət deyil və mənim göstərişimlə yeni 10 metro stansiyası inşa ediləcək. Onların yerləri də seçildi və bu ildən başlayaraq artıq investisiyalar da qoyulacaq. Bununla bərabər, yeni yol infrastruktur layihələrini Bakı şəhərində icra etmək üçün artıq ilk 7-8 layihə seçildi. Beynəlxalq mütəxəssislər cəlb edildi. Biz hansı yollara üstünlük verməliyik. Bəzən yeni yol açılır, amma o, tıxacın azalmasına yox, artmasına gətirib çıxarır. Yəni burada beynəlxalq təcrübə çox vacibdir və bu məsələ də mütləq öz həllini tapacaq.

Bir də ki, şəhər avtobus parkını elektrobuslarla əvəzləmək prosesi də başlamışdır. Biz artıq 150-dən çox yeni elektrobus gətirmişik və eyni zamanda, bu il Azərbaycanda yerli elektrobus istehsalı da başlanacaq. Yəni işlər gedir..."

Qlobal proseslərlə bağlı danışan Prezident İlham Əliyev bildirib ki, Tramp tamamilə yeni gündəliklə hakimiyyətə gəlir və onun birinci dönəmində Amerika-Azərbaycan əlaqələrində hər hansı bir problem yaşanmadı. Əksinə, münasibətlər çox müsbət idi və bir çox istiqamətlər üzrə biz irəliləyişə nail ola bilmişdik. Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi ondan ibarət idi ki, o, Amerika-Azərbaycan münasibətlərini Amerika-Ermənistan münasibətlərinin qurbanına çevirdi... Biz Amerika ilə əsas ciddi əməkdaşlıq platformasını Klinton və Corc Buş dönəmində yaratdıq və Tramp dönəmində bu davam etdi. Ona görə ümidlər var.

Prezident onu da deyib ki, Avropa Komissiyası ilə münasibətlərimizin necə inkişaf edəcəyini söyləmək çətindir... Avropa İttifaqının qondarma müşahidə missiyasının müddətinin uzadılması etimadı möhkəmləndirmədi, əksinə, sarsıtdı.

**Prezident İlham Əliyev sonda Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi torpaqlarına qayıdışı məsələsindən də danışıb. O deyib ki, bundan sonra əlbəttə ki, bizim həm qeyri-hökumət təşkilatlarının, həm dövlətin fəaliyyəti ondan ibarət olacaq ki, qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına, orada yaşadıqları kəndlərə, şəhərlərə qayıda bilsinlər və orada yaşasınlar. Bu, bütün beynəlxalq norma və prinsiplərə uyğun olan bir tələbdir:** "Xüsusilə nəzərə alsaq ki, indiki Ermənistan ərazisi, demək olar ki, vaxtilə onun mütləq əksəriyyətini təşkil edən hissəsi azərbaycanlıların yaşadıqları tarixi torpaqlardır. Bu gün biz deyirik ki, 300 min qərbi azərbaycanlı o bölgələrə qayıtmalıdır...

Mən hesab edirəm, yaxşı olardı ki, Ermənistanın baş naziri Qərbi Azərbaycan İcmasının nümayəndələrini qəbul etsin. Bildiyimə görə, onlar İrəvana da getməyə hazırdırlar. Qəbul etsin, onların dilindən onların problemlərini eşitsin, dinləsin onları. Yəni onlar oradan əsassız qovulmuşlar. Onların tam hüququ var ki, oraya qayıtsınlar...

Amma bunu hamı bilsin, həm Ermənistan, həm onun arxasında duranlar ki, bu məsələ gündəlikdən çıxmayacaq, o vaxta qədər ki, azərbaycanlılar təhlükəsizlik şəraitində Qərbi Azərbaycana və o cümlədən Qərbi Zəngəzura yerləşəcəklər".

❑ **Hazırladı: Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

# Prezident İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibini qəbul etdi



**Prezident İlham Əliyev yanvarın 8-də İran İslam Respublikasının Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədianı qəbul edib.**

Bu barədə rəsmi açıqlamada deyilir:

- Dövlətimizin başçısı Əli Əkbər Əhmədianın ölkəmizə səfərinin əlaqələrimizin inkişaf perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Qəbula görə minnətdarlığını bildirən qonaq qeyd etdi ki, dost və qardaş Azərbaycana səfər etməkdən məmnunluq duyur.

Əli Əkbər Əhmədian İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və Prezident Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın Ali Rəhbərinə və Prezidentinə çatdırmağı xahiş etdi.

Əli Əkbər Əhmədian vurğuladı ki, regionda Azərbaycanla İranın mədəni, tarixi, dini, o cümlədən sivilizasiya əlaqələrinin oxşarı yoxdur və bu cür qədim əlaqələrə malik iki ölkə tapmaq mümkün deyil. O, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsini, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını qeyd edərək, bu münasibətlə təbriklərini çatdırdı və bütün bunlara görə çox sevindiklərini dedi.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev xalqlarımızın çox sıx tellərlə bir-birinə bağlı olduğunu deyərək, iki dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının vacibliyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz İran İslam Respublikası ilə əlaqələrin bütün sahələrdə inkişafına həmişə xüsusi əhəmiyyət verir. İranda yeni prezident seçkilərindən sonra Azərbaycanın bir neçə yüksək səviyyəli nümayəndə heyətinin bu ölkəyə səfər etdiyi məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti İlham Əliyev ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması və torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı təbriklərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan işğal dövründə Azərbaycanın həmin ərazilərini darmadağın edib, mədəni və dini abidələrimizi, o cümlədən məscidlərimizi təhqirə məruz qoyub, ibadət ocaqlarında donuz və inək saxlayıb.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz regional məsələlərin region dövlətləri tərəfindən həll edilməsinin tərəfdarıdır və bu xüsusda regional əməkdaşlıq xarakteri daşıyan 3+3 formatının təşəbbüskarı da məhz Azərbaycan Respublikası olub. Regiondan kənar xarici qüvvələrin regiona cəlb edilməsinin qəbuledilməz olduğu bir daha qeyd edildi.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin və bu baxımdan Azərbaycan, Rusiya və İran arasında üçtərəfli əməkdaşlıq formatının vacibliyinə toxunuldu, Azərbaycanda bu istiqamətdə böyük həcmli yüklərin olduğu bildirildi. Həmçinin "Araz dəhlizi" layihəsi və bu çərçivədə Ağbənd məntəqəsi istiqamətində, Araz çayı üzərində körpülərin və yol-nəqliyyat infrastrukturunun tikintisi ilə bağlı fikir mübadiləsi aparıldı, bu layihənin də regional nəqliyyat bağlantılarının inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığı qeyd edildi. Azərbaycanla İran arasında Araz çayı boyunca su elektrik stansiyalarının inşası layihələri müzakirə olundu. Azərbaycan, Rusiya və İran arasında elektrik xəttlərinin birləşdirilməsi məsələsinə toxunuldu, bu istiqamətdə əməkdaşlıq üçün böyük potensialın olduğu vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və mehriban qonşuluq prinsipi əsasında münasibətlərin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyi qeyd olundu, yaxın gələcəkdə Azərbaycanla İran arasında hökumətlərarası komissiyanın növbəti iclasının keçiriləcəyi bildirildi. İclas çərçivəsində dövlət başçıları tərəfindən qeyd olunan konkret layihələrin müzakirəsi baxımından əlverişli imkanın olacağına ümidvarlıq ifadə edildi.

# Azərbaycan liderinin Tehrandan haqlı tələbləri - əməl edəcəklərmi...

## Prezident İlham Əliyev İranın ölkəmizə qarşı hansı təxribatları və niyə törətməsini ifşa etdi, üzr tələbi səsləndirdi

**Prezident İlham Əliyev yerli televiziyalara müsahibəsində hazırkı Azərbaycan-İran münasibətləri və indiki İran hakimiyyətindən bundan sonra hansı siyasət gözlədiyi barədə suala olduqca maraqlı və ətraflı cavab verib.**



Prezident Əliyev bildirib ki, bu barədə danışmaq bir qədər tezdir. Çünki hazırkı İran rəhbərliyi ilə bizim elə ciddi təmaslarımız olmayıb. Hökumət üzvləri arasında müəyyən təmaslar olub. Onlar daha çox iqtisadi və nəqliyyat məsələlərinə aid idi. O məsələlər, hansı ki, prinsipcə bizdə siyasi gündəlikdən ayrıdır və biz heç vaxt bunları qarışdırmamışıq.

**İlham Əliyev deyib ki, əvvəlki hakimiyyətlə bizim münasibətlərimizin pisləşməsi yenə də bizim günahımız ucbatından olmayıb:** "Sadəcə olaraq, bəzi məqamları xatırlatmaq istəyirəm. İkinci Qarabağ müharibəsi başa çatandan, artıq biz Laçın yoluna vizual müşahidə əldə edəndən sonra görməyə başladıq ki, İrandan gələn yanacaqdaşıyan yük maşınları müntəzəm olaraq Qarabağa Ermənistandan səfərlər edirlər. Mən köməkçimə göstəriş verdim və o, İranın Azərbaycandakı ovaxtkı səfiri ilə telefonla danışıb və deyib ki, bunu dayandırın. Biz bunu ictimailəşdirmək istəmirik, biz xahiş edirik, bunu dayandırın. Bu, yaxşı deyil, biz bunu görürük, bu, bizim ərazidir. Siz burada qanunsuz işlərlə məşğulsunuz. Əfsuslar olsun ki, bundan sonra bu, dayanmadı və daha da artdı. Ondan sonra ikinci addım olaraq biz İran səfirini Xarici İşlər Nazirliyinə dəvət etdik və ona etiraz notası verildi və bunu ictimailəşdirdik.

Ondan sonra da həm gülməli, həm də ağlamalı hadisələr baş verdi. Saxta erməni maşın nömrələrini İran yanacaqdaşıyan yük maşınlarının üzərinə yapışdırmaqla sanki bu, Ermənistan maşınlarıdır. Amma onların üzərində farsca yazılar da var idi. Bu, bizi çox təəccübləndirdi. Özü də biz araşdırmağa başladıq. Gördük ki, eyni nömrə bir neçə maşına yapışdırılır, yəni nömrə eyni, maşınlar fərqli idi. Yəni bu saxtakarlığı da o qədər səliqəsiz etmişdilər ki, adam, vallah, söz tapa bilmir. Ondan sonra biz artıq bir maşını saxladıq, sürücülər saxlanıldı və biz gördük ki, onların yol sənədlərində yazılıb ki, Stepanakert, Ermənistan. Yəni bu, açıq bizim ərazi bütövlüyümüzə, suverenliyimizə hörmətsizlik idi.

Ondan sonra bizə qarşı o məlum hədə-qorxu addımları, təlimlər, bəyanatlar, hədələr başlamışdı. Biz də adekvat addımlar atdıq. Bizim sərhədimizdə əgər hər hansı bir təlim, hərbi təlim keçirilirsə, biz də Azərbaycan-İran sərhədinin bu tərəfində eynisini etdik. Yəni göstərdik ki, biz heç kimdən qorxmuruq və haqlı olan tərəf bizik. Bu, eyni zamanda, mətbuatda həmin o təhqir kampaniyası ilə müşayiət olunurdu. Çünki bu, görünür, bəzi hakim dairələrin belə iş üslubudur. Əslində təhqir gücsüzlüyün rəmzidir. Sən əgər nəyəsə çata bilmirsənsə, - yəni mən ədəbsiz olan insanları nəzərdə tuturam, - təhqirə keçirlər. Yəni təhqir edən, əslində, özünü təhqir edir".

**Prezident sözlərinə davam edərək söyləyib ki, ondan sonra İran tərəfindən məsələnin tənzimlənməsi və sair xəbərlər gəldi. Daha sonra səfirliyimizə qarşı terror aktı törədildi və bu, təşkil olunmuş terror aktı idi. Bunu deməyə əsas verən bir çox amillər var idi:** "Birincisi, təxminən 40 dəqiqə ərzində bir dənə də polis maşını oraya yaxınlaşmamışdı. Halbuki bu, paytaxtın mərkəzində idi. Terroru törədən şəxs sonra dərhal, ertəsi gün psixi xəstə elan edildi. Halbuki istənilən tibbi ekspertiza bir neçə gün davam edir. Həmin bu şəxs elə terroru törətdiyi gün mətbuata çıxıb və müsahibə verir. O hadisədən iki il keçir. Bu günə qədər o insan ona verilən hökmə məruz qalmayıb. Bütün bunlar göstərir ki, bu, təşkil olunmuşdu. Bu, bir zəiflik nümayişi idi və Azərbaycan tərəfi də adekvat addımlar atdı. Bilirsiniz ki, biz səfirliyin bütün əməkdaşlarını geri çağırdıq və bizə rəsmi qaydada söz verilməyənə qədər, - İranın mərhum xarici işlər naziri, vertolyot qəzasında həlak olmuş cənab Abdullahian gəlib mənə söz vermişdi ki, o adam edam hökmünə cəlb ediləcək, - ondan sonra biz səfirliyin əməkdaşlarını geri qaytardıq. Amma bizi yenə də aldatdılar. Çünki bu edam hökmü həm icra edilmədi, həm də iş məhkəmədən yenə də istintaqa göndərildi. Yəni bu, dövlət səviyyəsində edilən anlaşılmaz bir hərəkət idi və biz öz tələblərimizdə israrlıyıq. Biz bilirik ki, İranda daha az ağır olan cinayətlərə görə edam hökmü elan edilir və dərhal icra olunur. Amma burada iki il, bu, nəinki icra edilməyib, hətta iş yenə də istintaqa göndərilib.

Bax, bu, məsələnin bir tərəfidir. İndi yeni hökumətlə bağlı olan münasibətlərə hələ ki, təhlil etmək çətindir. Çünki mənim şəxsən yeni Prezidentlə görüşüm olmayıb. Əgər olsa və nə vaxt olsa, onda mən bu barədə danışa bilərəm".

**Azərbaycan Prezidenti İranın Əli Amuli adında əyalət mollasının Azəraycana qarşı nifrətə köklənmiş mövqeyinə də münasibət bildirib:** "O ki qaldı əyalət mollasının bizə qarşı nifrət münasibətinə, bu, birinci dəfə deyil. Ərdəbil şəhərinin o mollası dəfələrlə Azərbaycana, Azərbaycan xalqına qarşı təhqiramiz ifadələr işlədib, o cümlədən mənə qarşı. Burada sual ondan ibarətdir ki, onu o vəzifəyə təyin edən adam buna necə münasibət göstərir. Axı o, özbaşına gəlib orada oturmayıb. Onu kim təyin edir, biz yaxşı bilirik. Onun reaksiyası nədir, o, bunu dəstəkləyir, yoxsa yox və Azərbaycandan kim üzr istəyəcək? Üzr istəyəcəklər, yoxsa yox?

İranın Xarici İşlər Nazirliyinin açıqlamasındakı təəssüf hissi kifayət deyil. Burada açıq təhqir olub: həm Türkiyə, həm Azərbaycan prezidentləri, həm bizim xalqlar və rəsmi tədbirdə canlı yayım gedən zaman və sadəcə, təəssüf?! Bu, əlbəttə ki, qəbuledilməzdir. Ona görə biz hesab edirik ki, o əyalət mollası cəzalandırılmalıdır. Ən azı vəzifəsindən qovulmalıdır və Azərbaycandan üzr istəməlidir. Bax, məsələ bundadır".

**Politoloq Elxan Şahinoğlu qeyd edib ki, Prezident İlham Əliyev İranla bağlı suala verdiyi detallı cavabda iki ölkə arasındakı münasibətlərdə gərginliyin səbəbini bənd-bənd izah edi. Dövlət başçısının cavabından aydın oldu ki, Azərbaycanın Qarabağ üzərində suverenliyini bərpa etməsi Fransa ilə yanaşı İranı da narahat edib:** "Prezidentin təbirincə desək, necə ki, Azərbaycanın qələbəsini Fransa öz məğlubiyyəti kimi qəbul edib, eyni sözləri İrana aid etmək olar. İlham Əliyevin İranın Ermənistan üzərindən Qarabağ separatçılarına daşıdığı yanacaq barədə söylədikləri bunun sübutudur. Dövlət başçısının "əyalət mollası" adlandırdığı Ərdəbilin cümə imamı Seyid Amulinin ilk dəfə deyil ki, onu və azərbaycanlıları təhqir etdiyini bildirdi. İlham Əliyev bu haqda danışarkən ritorik sual səsləndirdi: "Onu həmin vəzifəyə təyin edən şəxs (dövlət başçısı İranın ali dini liderini nəzərdə tutub) əyalət mollasının təhqiramiz fikirlərin barədə nə düşünür?" Başqa sözlə, dövlət başçısı ona işarə edib ki, əyalət mollası özbaşına danışmır, onu danışdıranlar var. Təəssüf ki, Amuli kimiləri danışdıranlar iki ölkə arasında normal münasibətlərinin qurulmasını istəmirlər, elə Azərbaycan səfirliyinə hücum edən terrorçunu məhz buna görə qoruyurlar".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

# Azərbaycanın iki müttəfiqi toqquşa bilər

## Qardaş Türkiyə ilə dost İsrail Suriyada qarşıdurma vəziyyətindədir - Bakı onları barışdıra biləcəkmi?

**İsrailin "Nagel" komitəsinin hazırladığı hesabatda bu ölkənin Türkiyə ilə birbaşa münaqişəyə hazırlaşmalı olduğu bildirilib. Baş nazir Benyamin Netanyahu da sözügedən hesabatı şərh edib.**

"Arenaya yeni qüvvələr daxil olur və gözlənilməz vəziyyətlərə hazır olmalıyıq", - deyə yəhudi baş nazir bildirib. "The Jerusalem Post"un xəbərinə görə, təxminən 15 il əvvəl İsraildə baş nazir Netanyahunun göstərişi ilə qurulmuş və professor Yakob Nagelin sədrlik etdiyi "Nagel" komissiyasının hazırladığı bu hesabat dünya mətbuatının da gündəmini zəbt edib. Netanyahu, müdafiə naziri İsrael Kats və maliyyə naziri Bezalel Smotriçə təqdim edilən hesabatda "təhdidlərə qarşı hərtərəfli strategiya" məsələsinə geniş yer verilib, İsrailin Türkiyə ilə birbaşa münaqişəyə hazırlaşması lazım olduğu bildirilib.

Hesabatda "Suriya təhlükəsi İran təhdidindən daha təhlükəli bir amilə çevrilə bilər", - deyə qeyd olunub. "Yaxın Şərqdə köklü dəyişikliklərin şahidi oluruq. İran uzun müddətdir ki, bizim ən böyük təhdidimizdir, lakin arenaya yeni güclər daxil olur və biz gözlənilməz vəziyyətlərə hazır olmalıyıq. Bu hesabat bizə İsrailin gələcəyini və təhlükəsizliyini təmin etmək üçün yol xəritəsidir", - deyə Netanyahu sonda bildirib. Bizə müttəfiq, dost olan İsrailin qardaşımız Türkiyə ilə Suriyada toqquşması Azərbaycan üçün arzuolunmaz ssenaridir. Onu da nəzərə alaq ki, bir müddət öncə Suriyadakı proseslərin tənzimlənməsində Azərbaycanın Türkiyə ilə birgə siyasət həyata keçirəcəyi haqda açıqlamalar verilib. Bu səbəbdən İsrail və Türkiyənin Suriyada toqquşması Azərbaycan üçün narahatlıq yaratmaya bilməz. Bəs rəsmi Bakı bu prosesləri normal məcraya yönəltmək üçün vasitəçi ölkə kimi çıxış edə bilərmi? Çünki bir müddət əvvəl Prezidentin köməkçisi Hikmət Hacıyev İsraildə oldu, prezident İsaq Hersoqla görüşdü, sonra növbəti marşrutu Türkiyəyə səfər idi. Analitiklər bu səfərləri Bakının Ankara ilə Tel-Əviv arasında gərginliyi azaltmaq təşəbbüsləri kimi qiymətləndirmişdi. Azərbaycan Türkiyə-Rusiya barışığında da vasitəçi olub. Təbii ki, dost İsrailin və qardaş Türkiyənin üz-üzə gəlməsi xoş hal deyil. Amma bu qarşıdurmanın hərbi fazaya daxil olacağı istisna edilir. lakin hər zaman daha da pisləşməsi potensialı var: "Bu mərhələdə biz bir-birimizi təhdid etmirik, lakin Suriyada Türkiyənin dəstəklədiyi qüvvələrlə toqquşma perspektivləri mövcuddur".



Tramp administrasiyasının Yaxın Şərq siyasətində prioritet məsələ ABŞ-ın iki müttəfiqi - Türkiyə və İsrail arasındakı rəqabəti idarə etmək olacaq. Bu barədə "The Wall Street Journal" (WSJ) yazıb. Nəşr qeyd edir ki, Suriya rejiminin süqutundan strateji qazanc əldə edən Türkiyə və İsraildir. Türkiyəli mütəxəssis Gönül Tol bildirib ki, Ankara yeni Suriyanın uğurlu olmasını və Türkiyənin maraqlarının təmin edilməsini istəyir. Türkiyədə hesab edirlər ki, İsrail Suriyaya yalnız zərər vura bilər. "WSJ" qeyd edib ki, İsrail üçün ən böyük nemət İranın "müqavimət oxu"nun süqutudur. "Əsədin devrilməsindən sonra Türkiyə şübhəsiz ki, Suriyada hakim qüvvəyə çevrilib. Bu da öz növbəsində Ərdoğanı keçmiş Osmanlı torpaqları boyunca, Liviya və Somaliyə qədər uzanan coğrafiyada təsir dairəsi yaratmaq hədəfinə yaxınlaşdırır. Bu, həm də İranla rəqabəti özündə ehtiva edir", - nəşr yazır. Hadisələri nəşrə dəyərləndirən İsrail Knessetinin Xarici əlaqələr və müdafiə komitəsinin sədri Yuli Edelşteyn isə bildirib ki, Türkiyə ilə münasibətlər pisdir,

**Siyasi ekspert Fuad Əliyev** Türkiyə-İsrail hərbi eskalasiyasını gözləmir. Onun fikrincə, hər iki dövlət ABŞ-ın müttəfiqidir və vəziyyətin bu yerə gəlib çıxması Vaşinqtonun marağında deyil. "Tramp dövründə barışığın olması, ya da mülayimləşmə istisna deyil. Hazırda Qəzza hadisələri və Suriyadakı keçid hökumətinin Ankara ilə yaxınlığı tərəflər arasında gərginliyə səbəb olub. İsrailin Qolan təpələrini aşıb Suriya ərazilərində hərbi əməliyyatlar aparması Türkiyənin hiddətinə səbəb olub. Ancaq Əsəd rejiminin devrilməsi, Suriyada həm Türkiyənin, həm İsrailin maraqlarının getdikcə təmin olunmağa başlaması belə təəssürat yaradır ki, mövqeləri üst-üstə düşür. Sadəcə, üzdə bir gərginlik olduğu müşahidə olunur. Hər halda, Azərbaycan ona yaxın olan dövlətlərin bir-biri ilə ədavətini bəyənmir, arzulamır. Biz hər zaman körpü rolu oynamağa, tərəfləri bir araya gətirməyə hazırıq, bu yöndə səylərimiz də davam etməkdədir", - deyə F.Əliyev belə hesab edir. Onun fikrincə, bu vəziyyətdən sui-istifadə etmək istəyən qüvvələrə imkan verilməməlidir.

**Siyasi ekspert Elşən Manafovun sözlərinə görə, Ərdoğanın Livan, İraq və Suriyadan sonra Türkiyənin özünün də İsrailin hədəfinə gələcəyi ilə bağlı açıqlamaları var:** "Bu açıqlamalar fonunda tərəflər arasında münasibətlərin kəskinləşəcəyini ehtimal etmək mümkündür. İsrailin Türkiyə torpaqlarına olan iddialarının arxasında Anadolunun zəngin su ehtiyatlarına yiyələnmək istəyi durur. Bununla belə, Türkiyənin Yaxın Şərq hadisələrində aparıcı rolu, onun hərbi gücü, beynəlxalq nüfuzu, regiona təsir imkanları İsrail tərəfindən nəzərə alınmaya bilməz. Türkiyənin Suriyada Əsəd rejiminin devrilməsində oynadığı rol ABŞ prezidenti Trampın belə, özü tərəfindən etiraf olunur". **Ekspertə görə, Suriyanın keçid hökuməti İsraillə münasibətlərə təmkinli yanaşır:** "Tərəflər ABŞ-ın yeni administrasiyasının Suriya ətrafında yaşanan hadisələrə münasibətini diqqətlə izləyəcəklər. Tramp israilpərəst mövqeyi ilə tanınan siyasətçidir və Ərdoğana olan simpatiyasına baxmayaraq, rəsmi Ankara İsraillə münasibətlərdə Vaşinqtonu narazı salacaq addımlar atmaqdan çəkinəcək".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Əsəd Putini iki gün gözləyib - sözçüsü

**Suriyanın devrilmiş diktatoru Bəşər Əsədin mətbuat xidmətinin keçmiş rəhbəri Kamal Saqr prezidentin ölkədən qaçışından əvvəl baş verənlərlə bağlı danışıb. Musavat.com xəbər verir ki, noyabrın sonunda Əsəd Putinlə görüş üçün iki gün gözləyib və görüş üç dəfə təxirə salınıb.**

"Nəhayət, Əsədin Rusiya prezidenti ilə bir saat davam edən görüşü baş tutdu. Putin köməkçisi vasitəsilə görüşlə bağlı açıqlamaların olmayacağını bildirdi. Rusiya tərəfi Əsədi Türkiyə prezidenti Ərdoğanla danışıqlar masasına oturmağa çağırdı". Lakin dekabrın 5-də Türkiyə danışıqlardan imtina edib. Putin isə Belarusda məşğul olduğunu əsas gətirərək Əsədin zənglərinə cavab verməyib. "Homs hadisələrindən sonra ordu təslim olmağa başladı, Əsəd artıq süqut etdiyini anladı", - Saqr bildirib.

❑ **Musavat.com**



# Ordu yeridiləcək - Fidandan sərt xəbərdarlıq

**Suriyada fəaliyyət göstərən PKK/YPG irəli sürülən şərtləri yerinə yetirməsə, onlara qarşı hərbi əməliyyat keçiriləcək. "Yeni Müsavat" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan deyib.**

"Biz aydın tələblər irəli sürdük. Əgər hərbi əməliyyat variantını istəmirsinizsə, o zaman xarici terrorçular Suriyanı tərk etməli, liderlər ölkəni tərk etməli, təşkilatın qalan üzvləri (Kürdüstan Fəhlə Partiyası və ona bağlı birləşmələr nəzərdə tutulur - red.) silahlarını aşağı salmalı və Suriyanın yeni rəhbərliyi ilə birlikdə çalışmalıdır. Dəməşq onlarla dialoq aparır. Bir dəfə dedi, ikinci dəfə deyəcək. Amma nəticə olmasa, hərbi əməliyyat hüquqi seçim olacaq. Biz uzun illərdir bu məsələ ilə məşğuluq. İndi Suriyadakı yeni reallıq kontekstində fərqli ssenariləri qiymətləndirərək işimizi davam etdiririk. Suriyanın yeni administrasiyası açıq şəkildə bu problemi tanımalı və ölkəsinin milli təhlükəsizliyini və bütövlüyünü təmin etmək üçün lazımi addımları atmalıdır. Bu bizim gözləntimizdir. Bu məsələ ilə bağlı danışıqlar davam edir", - H.Fidan vurğulayıb.

❑ **"Yeni Müsavat"**

# Türkiyə Suriyanın şimalına zərbələr endirib

**Türkiyə ordusu Suriyanın şimalında yerləşən Suluk kəndinə zərbələr endirib. Musavat.com xəbər verir ki, bu barədə "Al Arabiya" telekanalı məlumat yayıb. Bildirilib ki, kəndin cənub əraziləri bombalanıb.**

Kanal əlavə məlumat vermir. Yanvarın 5-də Türkiyə ordusu Suriyanın şimalında PKK-nın 32 silahlısını məhv edib. Qeyd edək ki, Türkiyə ilə PKK arasında münaqişə 1984-cü ildən davam edir.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025



# Ölən dilin alimləri

Zamin HACI
zaminhaci@gmail.com

**“Diloloji olması gərəkməzmi?”**
*(“Orqanizə işlər” filmindən)*

**Bu yaxında bir təşkilat dünya xalqlarının intellektual səviyyəsini (İQ) açıqlamışdı, Azərbaycan orada 51-ci yerdə idi.**

Doğrusu, mən belə reytinq siyahılarına inanmıram, çünki metod və hesablama üsulları məlum deyil. Üstəlik, keçən il biz guya 83-cü yerdə idik. Bəs arada ağlımızı 32 pillə artıran nə olub? Faktiki heç zad. Nə Nobel almışıq, nə də repetitora gedən uşaqlar azalıb. Əksinə, müzakirə edilən əsas mövzularımızdan biri “məktəbə bıçaq aparılmasının qarşısını necə alaq” şəklindədir.

İQ reytinqinin nəsə əlləm-qəlləm üsulla hazırlandığına 2-ci yeri tutan dövlət də haradasa işarə vururdu: İran. Təsəvvür elə. Guya məzlum qonşularımız o boyda sinə vurmaqdan, zəncir döyməkdən, baş yarmaqdan vaxt tapıb ağıllarını da artırıblar. Adama deyərlər belə ağıllısansa, niyə 40 ildir bir saqqallı kişinin fətvaları ilə yaşayırsan. Həmçinin maraqlıdır ki, keçən yazın reytinqində İran 114-cü yerdə göstərilmişdi. Bu boyda ağıl artımı heç bizim sovet dövründəki pambıq planlarında olmayıb.

Elə zəhmətkeşlərimiz də bilmədilər bu 51-ci yerimizə sevinsinlər, yoxsa kədərlənsinlər. Andıra qalmış çox ortalıq bir mövqedir. Anlamaq olmur bizdən qabaqda gedən zəncirlilərə həsəd aparmalıyıq, ya dala qalan zırramalara baxıb şükür etməliyik.

Ağıl reytinqini ölçmək üçün başqa üsullar da var, bunlardan biri ölkədə elmin vəziyyətidir. Ali Attestasiya Komissiyası (AAK) elmi dərəcələrin verilməsinə baxan idarədir. Və onun bu yanvar açıqladığı bəzi rəqəmlər acınacaqlı mənzərədən xəbər verir. 2024-cü ildə 526 nəfərə fəlsəfə doktoru (elmlər namizədi - köhnə adla yazsaq) adı verilib. Bunların içində ən çox pay filologiyaya düşüb - 156 nəfər. Mexanika, astronomiya, antropologiya, memarlıq üzrə ötən il 1 nəfər də fəlsəfə doktoru dərəcəsi alan olmayıb.

Elmlər doktoru adı alanların statistikası da acınacaqlıdır. Ötən il 71 nəfərə elmlər doktoru elmi dərəcəsi verilib, yenə ən öndə filoloqlar gedir - 23 nəfər. Texnika elmləri üzrə 13 nəfər doktor adı alıb, riyaziyyat, mexanika, yer elmləri, psixologiya və fəlsəfə sahələri üzrə hərəsində 1 nəfərə bu ad qismət olmuşdur.

Astronomiya, aqrar elmlər, əczaçılıq, antropologiya, iqtisad elmləri, coğrafiya, pedaqogika, siyasi elmlər, sosiologiya, memarlıq, milli təhlükəsizlik və hərbi elmlər üzrə isə doktor adı alan olmayıb.

Maraqlıdır ki, AAK sədri, sayın Famil Mustafayev özü iqtisadçıdır. İqtisad elmləri üzrə doktorluq işinin yoxluğunda onu qınamaq olarmı? Məsələn, mən köşə yazarları üzrə elmi şuranın müdiri olsam heç kəsə diplom verməərəm - mən varamsa, siz kimsiniz? (zarafat edirəm).

Yaxud necə olur ki, müharibədə qalib gəlmiş ölkədə hərbi elmlər üzrə dərəcə alan yoxdur? Qeyri-elmi üsullarla qalib gəlmişik? Elə görünmürdü axı.

Kənd təsərrüfatı da onun kimi. Bəlkə quzu əti bu səbəbdən bahalaşır? Elmi yanaşma çatmır.

Göydə nə qədər peykimiz uçur, Şamaxı rəsədxanası Aya baxmasa camaat orucunu açmır, astronomiya üzrə elmlər doktoru isə hazırlamırıq. Göydən başımıza daş yağacaq.

Ancaq elmin bütün dünyada əsası, mərkəzi sayılan dəqiq elmlərdə geri qalmağımız deyil, filologiya üzrə öncüllük daha absurddur. Rəqəmləri təkrar edirəm: 1 ildə filologiya üzrə 23 elmlər doktoru, 156 elmlər namizədi yetişibmiş!

Fantastikadır. Camaat ana dilini yaddan çıxarmaq üzrədir, uşaqlar Türkiyə seriallarının dilində danışır, dövlət yazışmaları, rəsmi sənədlər suaxili dilinin moltanı ləhcəsindədir, paytaxtda ana dilində bir dənə də dükan adı, restoran menyusu, tuman etiketi qalmayıb, rus sektoruna qaçan kim, ingilis dili kursu açan kim... Amma filologiya elmimiz zırıltı inkişafda imiş.

Mənim ta sözüm yoxdur. Elmi dildə yazsam, leksik imkanlarım tükəndi.



# “Azərbaycan Avropa İttifaqının vacib tərəfdaşıdır” - xüsusi nümayəndə

## Prezident Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edərkən ona nə dedi?

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.**

Maqdalena Qrono yeni vəzifədə dövlətimizin başçısı tərəfindən qəbul olunmasına görə minnətdarlığını ifadə edib.

O, təyyarə qəzası ilə bağlı dərin hüznlə başsağlığını çatdıraraq, aviaqəzanın bütün səbəblərinin hərtərəfli şəkildə araşdırılacağına ümidvarlığını bildirib.

Azərbaycanın Avropa İttifaqının vacib tərəfdaşı olduğunu deyən qonaq vurğuladı ki, Avropa İttifaqı Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasında maraqlıdır.

Maqdalena Qrono ölkəmizin region və onun hüdudlarından kənar kontekstində əhəmiyyətinə toxunaraq, bu xüsusda Avropa İttifaqı ilə Azərbaycan arasında dialoqun önəmini vurğulayıb. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini deyən qonaq xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyini qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın zəngin tarixə malik olduğunu vurğulayıb. Bu xüsusda Azərbaycanla Avropa İttifaqı arasında enerji, nəqliyyat, investisiyalar, ticarət və qarşılıqlı maraq doğuran digər sahələrlə bağlı məsələlərə toxunulub.

Dövlətimizin başçısı ölkəmizin Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirib və Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinin ikitərəfli müstəvidə aparıldığını deyib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı üçün temasların davam etdirilməsinin vacibliyi vurğulanıb.

# Qrenlandiya uğrunda ABŞ-Fransa savaşı başlayır



**“Avropa İttifaqı heç bir dövlətin öz sərhədlərinə hücum etməsinə icazə verməyəcək”.**

Musavat.com xəbər verir ki, Fransanın xarici işlər naziri Jan-Noel Barro ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın Qrenlandiya üzərində nəzarətlə bağlı bəyanatlarını şərh edərkən bu sözləri sərf edib.

Onun sözlərinə görə, Avropa güclü qitədir, lakin Avropa İttifaqını gücləndirmək üçün əlavə tədbirlər görülməlidir.

“Əgər siz məndən ABŞ-ın Qrenlandiyanı fəth edib-etməyəcəyini soruşsanız, cavabım "yox" olacaq. Lakin “güclülər qanununun geri döndüyü bir dövrə qədəm qoymuşuqmu?” - cavabım bəlidir", - deyə Barro “France İnter” radiosuna müsahibəsində bildirib.

❑ Musavat.com



# ABŞ İranın Yəməndəki müasir silah anbarlarını bombaladı

**ABŞ ordusunun Mərkəzi Komandanlığı (CENTCOM) Yəməndə husilərin nəzarət etdiyi ərazilərdə yerləşən iki yeraltı silah anbarına dəqiq zərbələr endirib.**

Musavat.com bildirir ki, zərbələr 8 yanvar tarixində həyata keçirilib və İran tərəfindən dəstəklənən husilərə məxsus obyektləri hədəfə alıb.

ABŞ Mərkəzi Komandanlığının bəyanatına görə, husilər bu anbarlardan ABŞ Hərbi Dəniz Qüvvələrinin hərbi və ticarət gəmilərinə qarşı Cənubi Qırmızı dənizdə və Aden körfəzində hücumlar təşkil etmək üçün istifadə edirdilər.

“ABŞ personalı və avadanlıqlarına heç bir zərər dəyməyib,” - deyə bəyanatda vurğulanıb.

❑ Musavat.com

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025




# Ermənistanın son sülh şansı - sərt xəbərdarlıq

## Prezident Əliyevin tövsiyələrinə əməl etməmək İrəvana baha başa gələ bilər; Paşinyan ölkəsində faşizmi məhv etməsə, "Dəmir yumruq" yenə işə düşə bilər

**Ermənistan 2025-ə Azərbaycana qarşı təxribatlarla başladı. Yanvarın ilk günlərində Gorus istiqamətindən Laçını bir neçə dəfə atəşə tutdular. Bunun ardınca bəlli oldu ki, Naxçıvan istiqamətində Ermənistan Silahlı Qüvvələri bunker və beton tipli hücum xarakterli istehkamlar inşa edir. Telegram kanallarında yayılan görüntülər də bunu təsdiqləyir.**

Qeyd edilib ki, şərti sərhəd istiqamətində mühəndis istehkam işləri aparan düşmən eyni prosesi Naxçıvan istiqamətində də həyata keçirir. Digərlərindən fərqli olaraq, fotolarda gördüyünüz çoxməqsədli istehkamların ikisi də yeni çəkilmiş bir təminat yolu və bir istiqamət üzərində tikilib. İstehkamların bir-biri ilə əlaqəsi var.

İstehkamlar Naxçıvanın bir neçə kilometrliyində yerləşir. Naxçıvan istiqamətində də Ermənistanın bu kimi addımları Ermənistanın sülhdə maraqlı olmadığını və Azərbaycana qarşı revanşist, məkrli planlarının olduğunu bir daha sübut edir. 2025-də Ermənistanın Konstitusiyasını dəyişərək, sülh istiqamətində addımlayacağına dair gözləntilər bununla heçə enmiş oldu.

Ermənistan faktiki olaraq 2025-ə təxribatlarla, habelə silahlanmanı artırmaqla başlamaqla onun mesajını vermiş oldu ki, sülhdə maraqlı deyillər. Faktiki olaraq İrəvan bununla özünə gor qazır. Əlbəttə, belə vəziyyətin formalaşmasında Ermənistan xarici təsir dairələrinin təşviqi ilə hərəkət edir.

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində növbəti dəfə Ermənistanı və havadarlarını xəbərdar edib. "Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz bunu istəmirik. Biz sülh istəyirik", - deyə dövlət başçısı bildirib.

Ermənistanın faktiki olaraq bölgə üçün bir təhdid mənbəyi olduğuna diqqət çəkən dövlətimizin başçısı qeyd edib ki, müstəqil Ermənistan dövləti əslində faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar. Ölkəmizin faşist dövlətlə qonşu olduğunu və faşizm təhlükəsinin sovuşmadığını xatırladan Prezident bildirib: "Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur".

Çox ciddi xəbərdarlıqdır. Bundan əvvəl də dövlətimizin başçısı bildirmişdi ki, Ermənistanın təxribatlarına sadəcə tamaşa etməyəcəyik. Ermənistan bu xəbərdarlıqlardan dərs götürməlidir.

Hazırkı məqamda Cənubi Qafqazda yeni silahlı toqquşmaların baş verməsi kimin marağındadır? Fransa bəlli, bəs hazırkı şərtlər daxilində Rusiya dairələri də bunda maraqlı ola bilərmi?

**Deputat Vüqar Rəhimzadə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan tarixi Zəfərindən sonra Ermənistana beynəlxalq hüququn 5 əsas prinsipini özündə əks etdirən sülh müqaviləsinin imzalanmasını təklif edib:** "Amma həmin vaxtdan xeyli müddət keçsə də, Ermənistan hələlik himayədarlarının dəstəyi sayəsində konstruktiv mövqe ortaya qoymaqdan, sülh müqaviləsini imzalamaqdan yayınır. Görünən budur ki, himayədarlarının dəstəyi işğalçı ölkəni sülh müqaviləsini imzalamaq əvəzinə hərbi təxribatlar törətməklə bu prosesi uzatmaq barədə düşünməyə daha çox sövq edir. Bunun səbəblərindən biri bəzi Qərb dövlətləri, əsasən də Fransa tərəfindən Ermənistanın silahlandırılmasıdır. Deməli, həmin qüvvələr regionda sülhün və təhlükəsizliyin təmin edilməsində maraqlı deyillər. Ermənistanda gedən silahlanma prosesi region üçün yeni təhdid amilidir".

**V.Rəhimzadə qeyd etdi ki, təcavüzkar dövlətin arxasında duran həmin qüvvələr onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edirlər:** "İlin əvvəlindən başlayaraq Ermənistan tərəfindən mövqelərimizin atəşə tutulması da bunun təsdiqidir. Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində qeyd etdi ki, Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz bunu istəmirik. Biz sülh istəyirik. Biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın. Ancaq görürük ki, Ermənistanın həm özü, həm onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir. Müstəqil Ermənistan dövləti əslində faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar. Dünyada nüfuzu sarsılan, Afrikadan biabırçı şəkildə qovulan Fransa Ermənistanı silahlandırmaq, müharibəyə təhrik etməklə regiona təsir imkanları əldə etməyə çalışır. Sülh müqaviləsinin imzalanması oyundankənar vəziyyətdə qalan Fransanın regionla bağlı siyasətini tam fiaskoya uğradacaq. Ona görə də Ermənistanı silahlandırmaq, revanşizmə təhrik etməklə bu prosesin qarşısını almağa çalışır. Amma Ermənistan unutmamalıdır ki, dəmir yumruq yerindədir, regionun söz sahibi, aparıcı iqtisadiyyatı, aparıcı hərbi gücü və aparıcı dövləti Azərbaycandır. Bu gün Ermənistanı silahlandıranlar, təxribatlara təhrik edənlər Vətən müharibəsi, antiterror tədbirləri zamanı olduğu kimi onların arxasında durmayacaqlar".

**Deputat əlavə etdi ki, dövlətimizin başçısının yerli televiziya kanallarına müsahibəsində qeyd etdiyi kimi, Ermənistan silahlanmanı dərhal dayandırmalıdır:** "Ona silah verən Fransa və digər ölkələr o kontraktlara xitam verməlidir, ləğv etməlidir. Artıq Ermənistana göndərilmiş silahlar geri qayıtmalıdır. Bu, bizim şərtimizdir. İndi kim bunu necə istəyir, elə də qəbul etsin. Mən sözümü deyirəm, onlar da bilirlər, onların arxasında duranlar da bilirlər ki, əgər biz nəyisə deyiriksə, deməli, artıq bu məsələyə çox ciddi yanaşırıq".

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, politoloq Tural İsmayılov isə bildirdi ki, Ermənistanın silahlandırılması çox ciddi problemlər vəd edir:** "Təəssüflər olsun ki, Ermənistan və havadarları Azərbaycana qarşı müharibəyə hazırlaşırlar. Ağlı var, məntiq var; bu qədər silahlanma boşuna deyil ki. Ermənistanın silahlandırılması çox təhlükəli tendensiyalardan xəbər verir. Birinci tendensiya ondan ibarətdir ki, Qərb dövlətləri aktiv şəkildə Ermənistan vasitəsilə bizim coğrafiyamızda gərginlik ocaqları yaratmağa çalışırlar. Ermənistanın Fransa və Hindistan tərəfindən silahlandırılması, Yunanıstanın Rusiyadan əldə etdiyi S300-ləri Ermənistana ixrac etməsi ilə bağlı xəbərlər onu göstərir ki, Ermənistan Azərbaycanla kiçik müharibə aparmaq iddiasındadır".

**Ekspert qeyd etdi ki, Ermənistanda bu gün çox ciddi iqtisadi problemlər mövcuddur:** "Həmçinin bilirik ki, Ermənistanda iqtidar komandası içərisində də çöküş başlayıb. Ayrı-ayrı məmurlara qarşı Paşinyan tərəfindən sərt sanksiyalar və hücumlar həyata keçirilir. Əlbəttə ki, ölkədəki idarəetmə xaosu, cəmiyyətlə siyasi qüvvələr arasındakı uçurum Ermənistanın yeni siyasi gündəm formalaşdırmasına səbəb yaradır. Daxildəki problemlərdən diqqəti yayındırmaq üçün qəsdən Ermənistan Azərbaycanla yeni bir müharibə aparmaq və fikirləri oraya yönəltmək istəyir". **T.İsmayılovun sözlərinə görə, digər bir hədəf də ondan ibarətdir ki, Ermənistan onu daim dəstəkləyən qüvvələrdən maliyyə gəliri əldə etmək üçün Azərbaycanla süni gərginlik yaratmağa çalışır:** "Qərbin isə Ermənistanı silahlandırmaqda bir neçə məqsədi var. Bu məqsədlərdən biri Ermənistanı silahlandırmaqla Rusiyanın bu ölkənin hərb sistemindəki üstünlüyünü aradan qaldırmaq, həmçinin onun ərazilərindən Rusiyaya qarşı istifadə etməyə çalışmaqdır. Rusiyaya gəldikdə isə son təyyarə olayları da göstərir ki, Rusiyanın özü də etibarlı tərəfdaş ola bilməz. Azərbaycan bu gün real güc faktorudur, Ermənistanın silahlanmasına göz yuma bilmərik".

**Yazı çapa hazırlanarkən İrəvandan növbəti avantürist bəyanatlar yayıldı.** "Azərbaycan hücum silahları əldə edir, Ermənistan da silah alır, lakin Azərbaycandan daha az miqdarda". Musavat.com xəbər verir ki, bu sözlər Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın yanvarın 8-də 2024-cü ilin yekunlarına dair mətbuat konfransında səslənib. "Silahların alınması hər kəsin suveren hüququdur. Sərhədlərini qorumaq da Ermənistanın suveren hüququdur. Amma hər hansı narahatlıq olsa belə, məlumdur ki, biz qonşularımızın ərazi bütövlüyünü tanıyırıq və qonşularımızdan da ərazi bütövlüyümüzü tanımasını gözləyirik. Biz bildirmişik ki, qonşularımıza qarşı hər hansı hərbi əməliyyat keçirmək fikrimiz yoxdur. Qonşularımızın da bizə qarşı eyni davranışı göstərməsini gözləyirik. Eyni zamanda biz ordumuzda islahatlar aparırıq və bu islahatın tərkib hissələrindən biri də silahların alınmasıdır. Biz Azərbaycanın mümkün hücum niyyətindən narahatıq. Ermənistan sırf müdafiə məqsədilə silah alıb və əldə edəcək", - deyə Mirzoyan bildirib. Ermənistan nazir həyasızlıqla Azərbaycanın Ermənistanın "200 kvadrat kilometrdən çox ərazisini işğal etdiyini" də söyləyib. Onun sözlərinə görə, Ermənistan bu halda belə hərbi yola baş vurmaq fikrində deyil, lakin bu məsələyə delimitasiya prosesinin tərkib hissəsi kimi baxmaq niyyətindədir. "Biz alınan silahları geri qaytarmaq fikrində deyilik", - deyə Ermənistan XİN rəhbəri əlavə edib.

Beləliklə, Ermənistan islah olunmaq niyyətində deyil və özünə gor qazmaqda israrlıdır. Belə görünür yenə də "Dəmir yumruq" öz sözünü deməli olacaq!

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

# Banklar üçün yeni “yol xəritəsi”

## Kreditləşmədə yeniliklər nə vəd edir...

**Azərbaycan Mərkəzi Bankı (AMB) davranış modelləri əsasında kreditləşməyə dair prudensial tənzimləmə çərçivəsini qəbul edib. Mərkəzi Bankdan “Yeni Müsavat”a verilən məlumata görə, müasir dövrdə banklarda proseslərin avtomatlaşdırılması, müştəri yönümlü olması, süni intellekt həllərin tətbiqi nəticəsində proqnozlaşdırılan məlumatların dəqiqliyinin daha da artımı ənənəvi bank xidmətlərinin alternativ kanallarla daha aşağı xərc və yüksək sürətlə təklif edilməsi imkanlarını artırır.**

Davranış modelləri üzrə qəbul edilmiş yeni prudensial tənzimlənmə çərçivəsi də bu imkanlardan istifadə edərək fərdi sahibkarlara və fiziki şəxslərə banklar tərəfindən onların proqnozlaşdırılan gəlirləri əsasında kredit verilişini təmin edəcək. Qəbul edilmiş dəyişikliklərdə davranış modelinin hazırlanması prosesinə, bankda bu sahədə potensialın artırılmasına, modelin validasiyasına və hesabatlığına dair tələblər, habelə davranış modeli əsasında verilmiş kreditlər üzrə risklərin azaldılması məqsədilə limitlər, daha sərt təsnifləşdirmə tələbləri və artırılmış kapital tələbləri müəyyən edilmişdir. Belə ki, banklar məcmu miqdarı bankın kredit portfelinin 10 faizindən artıq olmamaq şərti ilə davranış modelləri əsasında kredit verilişini həyata keçirə biləcək. Bununla belə, davranış model əsasında verilmiş və 90 gündən çox gecikdirilmiş kreditlərin həcmi həmin kredit portfelinin 10 faizinə çatdıqda model əsasında kreditlərin verilməsi dayandırılacaq.




**Tənzimləyici bildirir ki, bütövlükdə kreditləşmə prosesində davranış modellərindən istifadə müştərilərin bank kreditlərinə əlçatanlığının artırılmasına xidmət edəcək:** “Bu isə öz növbəsində kiçik və orta sahibkarlığın maliyyə və məşğulluq imkanlarının genişlənməsinə, eləcə də resursların daha məhsuldar bölgüsünə köməklik edəcək. Həmçinin modellər vasitəsilə daha dəqiq və yeni məlumatlardan istifadə imkanı bankların biznes proseslərinin optimallaşdırılmasına, əməliyyat xərclərinə qənaətə, kredit anderraytinqi və skorinq proseslərinin sürətləndirilməsinə, dəqiqliyinin artırılmasına, bununla da kredit risklərinin azaldılmasına töhfə verəcək”.

Yeni çərçivə kiçik və orta sahibkarların kreditlərə əlçatanlığını nə qədər artıracaq? Mərkəzi Bank hədəflərinə nail ola biləcəkmi?

**Sualları cavablandıran maliyyə-bank sahəsi üzrə ekspert Cəfər İbrahimlinin “Yeni Müsavat”a dediyinə görə, bir qayda olaraq banklar müştərinin kredit qabiliyyətini qiymətləndirərkən bunu əvvəlki kredit tarixçəsini nəzərə alaraq həyata keçirirlər:** “Hər hansı müştəriyə verilən kredit limiti də buna uyğun müəyyənləşdirilir. Biznes kreditləri üçün xüsusi biznes plan tələbi var. Bu planda biznes subyektinin mövcud vəziyyəti, investisiyanın gəlirliliyi, gələcək planları əksini tapır. Bu plan banklarda müştəri barədə fikir formalaşdırırdı. İndi bunu modellər üzərindən daha dəqiq mexanizmlə həyata keçirmək mümkün olacaq. Modelləşdirmə ilə müştərinin kredit limitinin müəyyən olunması sahəsində daha dəqiq fikir yürütmək mümkün olacaq. Buna görə də kredit limitlərinin artması, banklar üçün risklərin daha dəqiq müəyyən olunması imkanları yaranacaq. Təminat nisbətindən daha çox kredit limitinin ayrılması mümkün olacaq. Verilmiş kredit limiti ehtiyat ayrılması üçün uyğun parametrlərlə təsnifləşdiriləcək və bankların kapitalına ciddi mənfi təsiri olmayacaq”.

**Ekspert bildrir ki, yeni metodla kreditləşmə üçün ilkin olaraq limit müəyyənləşdirilib:** “Görünür, pilot qaydada tətbiqi nəzərdə tutulur və uğurlu nəticələr əldə olunarsa, limit daha da artırılacaq. Bu çərçivənin əsas mühüm məqamlarından biri budur ki, bank risklərinin azalması, götürülən risk çərçivəsində iqtisadiyyatın kreditləşməsinin genişləndirilməsi mümkün olacaq. Sahibkarlar üçün müsbət məqam kredit əlçatanlığının artması olacaq.

Hələlik çərçivənin icrasına yeni başlanır, onun hədəflərə nə qədər çox çatılmasına imkan verəcəyini mexanizm bir müddət işlədikdən sonra qiymətləndirmək mümkün olacaq".

**İqtisadçı-alim, Milli Məclisin üzvü Vüqar Bayramov bildirib ki, yeni çərçivə davranış modelləri əsasında bankların fərdi sahibkarlara və fiziki şəxslərə kredit verməsini nəzərdə tutur:** “Bununla belə, bu model kreditləşmə ilə bağlı müəyyən məhdudiyyətlər də tətbiq edir. Belə ki, banklar kredit portfelinin 10 faizindən artıq olmamaq şərti ilə davranış modelləri əsasında kredit təklif edə biləcək. Eyni zamanda davranış model əsasında verilmiş və 90 gündən çox gecikdirilmiş kreditlərin həcmi həmin kredit portfelinin 10 faizinə çatdıqda model əsasında kreditlərin verilməsi dayandırılacaq. Bu modelin tətbiqinə başlanılması iki vacib məsələni aktuallaşdırır. Birincisi, Azərbaycan bankları bu modelin tətbiqinə hazırdırlarmı? İkincisi, bu modelin tətbiqi borclanma risklərini artıra bilərmi və eləcə də kreditləşmədə məhdudiyyətlərə səbəb olarmı?

Davranış kredit skorinqi modeli uzun müddətdir ki, inkişaf etmiş ölkələrdə tətbiq olunur. Rəsmi gəlirlər, ödəniş tarixi kimi statik məlumatlara əsaslanan ənənəvi kredit riski profilindən fərqli olaraq, bu model xərcləmə vərdişləri, əməliyyat tezliyi və rəqəmsal iz kimi dinamik dəyişənləri nəzərə alır. Bu zaman bank əməliyyatları, onlayn alışlar, sosial media fəaliyyəti və hətta mobil cihazdan istifadə də daxil olmaqla müxtəlif mənbələrdən böyük həcmdə məlumatların toplanması və emalı tələb olunur. Yəni vətəndaşın sosial mediada fəaliyyəti və ya aktivliyi də kredit verilən zaman nəzərə alına bilir. Digər tərəfdən, bu model dinamikdir, yeni məlumatlar əldə olunduqca kredit profillərini davamlı olaraq izləyir, yeniləyir və bununla da borcalanın maliyyə vəziyyətindəki dəyişikliklərə uyğunlaşır. Bu isə əsaslandırılmış model validasiyası tələb edir.

Bu zaman ən ciddi çağırışlardan biri fərdlərin öz maliyyə davranışlarını manipulyasiya etmə cəhdləridir. Bunun qarşısının alınması üçün isə modelin güclü alqoritmləri və veriblardan (dəyişənlərdən) istifadəsinə ehtiyac var. Bu baxımdan, bankların davranış modelinin tətbiqinə hazır olmasına və güclü qiymətləndirmə və izləmə elektron formularından istifadəsinə ehtiyac var. Bu isə o deməkdir ki, modelin uğurlu tətbiqi bankların davranışlarından da asılı olacaq.

Digər məqam Azərbaycan Mərkəzi Bankının qərarı ilə bu model üzrə kreditləşməyə limitlərin müəyyənləşdirilməsidir. Bu məsələdə beynəlxalq praktikada fərqli yanaşmalar var. Amma ölkədə ümumi kredit portfelinin 27 milyard 368 milyon manat olduğunu nəzərə aldıqda orta hesabla 3 milyard manata yaxın kredit bu model vasitəsilə təklif oluna bilər. Bununla yanaşı, model çərçivəsində təqdim olunan vəsaitlər üzrə problemli kreditin həcmi limiti keçdiyi halda modeldən istifadə dayandırılır. Bunun banklarda model vasitəsilə kreditləşməyə marağın azalmasına gətirib çıxarması da istisna deyil.

Bütövlükdə, davranış kredit skorinqi modeli üzrə kreditlərin təklifi bank sektoru üçün yeni bir mərhələ olacaq. Bunun uğuru isə birbaşa bankların elmi və araşdırma potensialından asılı olacaq".

AMB-nin açıqladığı son məlumata əsasən Azərbaycan banklarının kredit portfelinin artımı 2024-cü ilin noyabr ayında da davam edib. Hesabat ayında bankların kredit portfeli 1.1 faiz və ya 287.6 milyon manat artaraq 27 milyard 368.1 milyon manat təşkil edib.

Kredit portfelinin strukturuna baxsaq, biznes kreditləri - 53.9 faiz (14 milyard 746.7 milyon manat); istehlak kreditləri - 30.8 faiz (8 milyard 422.9 milyon manat) və ipoteka kreditləri - 15.3 faiz (4 milyard 198.6 milyon manat) paya malik olub.

Cəmi kredit portfelində (BOKT-lər və kredit ittifaqları daxil olmaqla) vaxtı keçmiş kreditlərin payı əvvəlki ilin müvafiq dövrünə nəzərən 0.2 faiz bəndi azalaraq 1.7 faiz təşkil edib.

Qeyd edək ki, Azərbaycanda kredit portfelinin strukturunda biznes kreditlərinin payı digər növlərdən daha aşağı artım sürəti nümayiş etdirir. Belə ki, son 2 il yarımdan çox müddətdə ölkədə kredit portfeli 10 milyard manat artıb. Bu artımlar həm biznes, həm istehlak, həm də ipoteka kreditlərinə aid olsa da, bunlar arasında artım sürəti biznes kreditlərində digər ikisindən daha az olub. Belə ki, sözügedən dövr ərzində ipoteka kreditləri 66 faiz, istehlak kreditləri 77 faiz artdığı halda, biznes kreditləri 44 faiz artıb. Biznes kreditlərinin tərkibində isə mikrosahibkarlara verilən kreditlərdə ciddi artım qeydə alınsa da, orta və kiçik sahibkarlara verilən kreditlərdə azalma müşahidə olunur. Belə ki, mikrosahibkarlara verilən kreditlər 33 faiz artdığı halda, orta sahibkarlara verilən kreditlər 27 faiz, kiçik sahibkarlığa verilən kreditlər 12 faiz azalıb. Son 5 ildə bankların biznes kredit portfelində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə verilmiş kreditlərin payı 14,4 faiz bəndi artaraq 50 faizi üstələyib.

Bundan əlavə, ölkə üzrə verilən kreditlərdə Bakının payı 77 faizdən yuxarıdır ki, bu da regionlarda kredit əlçatanlığının paytaxtla müqayisədə çox məhdud olmasından xəbər verir. Rəsmi statistikadan o da aydın olur ki, biznes kreditlərinin cəmi 20 faizə qədəri regionlarda fəaliyyət göstərən biznes subyektlərinə verilir.

Bütün bunları nəzərə aldıqda, Mərkəzi Bankın qəbul etdiyi yeni çərçivənin kreditləşməni artırmaq, xüsusilə regionlarda biznesin kredit əlçatanlığının genişləndirilməsi baxımından ciddi əhəmiyyət kəsb etdiyini söyləmək olar...

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**




## BTQ: “Müstəmləkə ərazilərində yaşayan xalqlara dəstəyə davam edəcəyik”

**“VIGINUM təşkilatının hesabatında Bakı Təşəbbüs Qrupunun fəaliyyətinin Fransanın ərazi bütövlüyünə qarşı yönəlməsi barədə yer alan məlumatlar əsassızdır”.**

APA xəbər verir ki, bunu keçirdiyi mətbuat konfransında Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov deyib.

O bildirib ki, Bakı Təşəbbüs Qrupunun müstəmləkə ərazilərində yaşayan xalqların azadlıq mübarizəsinə dəstəyi davam edəcək: “Bizim fəaliyyətimiz bilavasitə müstəmləkə xalqlarının azadlıq mübarizəsinə dəstək xarakterlidir. Fransa tərəfinin təşkilatımızla bağlı irəli sürdüyü iddiaların hər biri əsassızdır. Bizim müstəmləkə ərazilərindəki fəallarla əməkdaşlığımız bilavasitə neokolonializm siyasətinə qarşıdır. Fransa qoşunları Mali, Niger, Burkina-Faso, Çad, Seneqal və Kot-di-Vuardan qovulub”.

**Təşkilatın mətbuat katibi Elgün Hacıyev isə bildirib ki, Fransanın sözügedən hesabatda bizim paylaşımlarımıza münasibət bildirən şəxslərin məlumatlarını da ictimailəşdirməsi tamamilə qanunsuzdur:** “Fransa hakimiyyətinin Yeni Kaledoniya xalqına törətdiyi zorakılıqlarla bağlı faktlar bizim əlimizdə idi və biz də onları ictimailəşdirmişik. İddialar bundan ibarət idi ki, bizim hesabatlar Fransa tərəfinə əlçatmaz idi. Amma hər kəs şahid olub ki, bizim paylaşımlarımızın hər biri bütövlükdə auditoriya üçün əlçatandır. Fransa sözügedən hesabatda bizim paylaşımlarımıza münasibət bildirən şəxslərin məlumatlarını da ictimailəşdirib ki, bu da ifadə azadlığına müdaxilədir. Həmin şəxslərin "trol" adlandırılması qəbuledilməzdir".

Milli şüur, vətənpərvərlik
YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# "Gəncləri seçki proseslərində iştiraka təşviq etməliyik" - partiya sədri

## "Ölkədə baş verən proseslərdə gənclərimizin aktiv iştirakına hər zaman şahidlik etmişik"

**Yanvarın 29-da Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Bələdiyyə seçkilərində 16 min 174 nəfərin namizədliyi qeydə alınıb. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov məlumat verib ki, namizədlər 23 siyasi partiyanı təmsil edirlər: "Onlardan 8 min 429 nəfəri siyasi partiyanın nümayəndələridir. Bələdiyyə seçkiləri üçün 25 min 685 yerli müşahidəçi akkreditasiyadan keçib. Yanvarın 6-da bələdiyyə seçkilərində seçkiqabağı təşviqat başlayıb.**

**Milli Məclisin deputatı, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə** "Yeni Müsavat"a şərhində bildirdi ki, partiya nümayəndələri bələdiyyə seçkilərində fəal iştirak etməyi planlaşdırırlar. Partiya sədri budəfəki seçkilərdə gənclərin o qədər də fəal olmadığına diqqət çəkdi:

"Çalışmışıq ki, budəfəki seçki prosesində daha çox gənclərimizin iştirakına şərait yaradaq, gənclər prosesdə aktiv iştirak etsinlər. Amma sözün açığı, gənclərin bələdiyyə seçkilərində iştirakı, aktivliyi bir o qədər də yüksək deyil, bunu etiraf etmək lazımdır. Baxmayaraq ki, əvvəlki dönəmlərdə gənclərimiz daha fəal olublar, bütün proseslərdə daha yaxından iştiraka həvəs göstəriblər. Amma hazırkı dönəmdə, xüsusilə də bələdiyyələrin statusunun lazımi səviyyədə olmaması, o cümlədən bələdiyyələrin yerli özünüidarəetmə prosesində lazımi səviyyədə iştirak etməməsi ilə bağlı arqumentlər gətirilir. Bu səbəbdən də gənclərin bu seçki prosesində iştirak etməsində müəyyən əngəllər var. Hesab edirəm ki, gənclərimiz əvvəlki dönəmlərdə, bütün seçki proseslərində daha fəal olublar. Ümumilikdə, ölkədə baş verən proseslərdə gənclərimizin aktiv iştirakına hər zaman şahidlik etmişik. Bizim gəncliyimiz Azərbaycanda Milli Azadlıq Hərəkatının vüsət aldığı dövrə düşmüşdü. O proseslərdə gənclər əsas hərəkətverici qüvvə olaraq iştirak edirdi, bu danılmaz faktdır. Həmçinin Azərbaycanda müstəqilliyin əldə olunması, sonrakı dönəmlərdə müstəqilliyin qorunub saxlanması, Birinci Qarabağ müharibəsi, bir neçə il əvvəl, yaxın tarixdə baş verən İkinci Qarabağ müharibəsində də gənclərimiz aktiv oldular, prosesdə daha fəal iştirak etdilər. Təbii ki, bu olduqca qürurvericidir. Azərbaycan gəncliyi hər zaman bütün proseslərdə öz fəallığı ilə seçilib. Amma müşahidələrimiz onu deməyə əsas verir ki, bələdiyyə seçkiləri prosesində ən azından əvvəlki parlament seçkilərində olduğundan daha fəal olmayan formada iştiraka biz şahidlik etdik".


Arzuxan Əlizadə

**A.Əlizadə hesab edir ki, Azərbaycan gəncləri heç bir halda proseslərdən kənarda qalmamalıdır:** "Azərbaycanın gələcəyi gənclərlə bağlıdır. Gənclər bütün siyasi proseslərdə aktiv iştirak etməlidirlər. Ən azından bu proseslərdə iştirakları ilə təcrübə toplamalı və gələcək Azərbaycan dövlətinin bir qədər də güclənməsində, qüdrətli olmasında, siyasi proseslərin yönləndirilməsində, gənclərin aktiv iştirakı əsas məsələlərdən biridir ki, buna təkan verilməlidir. Bizim də borcumuz ondan ibarətdir ki, gəncləri bu proseslərə hazırlayaq, onları təşviq edək. Fikrimcə, seçkilər olduqca böyük məktəbdir, bunu Azərbaycan gəncliyinə xitabən deyirəm. Partiyamızın gəncləri ilə görüşlərimizdə də dəfələrlə bu məsələlərə xüsusilə diqqət yetirmişik. Həm partiyanın gələcəyi, həm də Azərbaycanın gələcəyi bizim gənclərimizin hansı səviyyədə savadlı, yüksək intellektə malik, yüksək siyasi təcrübəyə malik olmalarından keçir deyə gənclərə geniş meydan verilməlidir və gənclər özləri də bu proseslərdə aktiv olmalıdırlar. Amma konkret olaraq bu bələdiyyə seçkilərində müşahidələrim onu deməyə əsas verir ki, təkcə partiyamızın gənclərini deyil, digər siyasi təşkilatları da nəzərdə tutaraq deyirəm ki, gənclər seçkilərdə iştiraka bir o qədər də aktiv surətdə qoşulub, həvəs göstərmirlər. Bu da əslində olduqca təəssüfedici haldır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# "SOCAR Türkiye" 2024-ü necə yekunlaşdırdı - 2025-in planları

## 17 il ərzində Türkiyəyə 18,5 milyard ABŞ dollarından çox sərmayə qoyulub





**Yanvarın 5-7-də bir qrup azərbaycanlı jurnalist Türkiyəyə səfər edib. İstanbul şəhərinə təşkil olunan səfərin təşkilatçısı "SOCAR Türkiye" idi. Ənənəvi olaraq təşkil olunan səfərin əsas məqsədi şirkətin 2024-cü ildəki fəaliyyətinə dair məlumat vermək olub.**

Mətbuat konfransında **"SOCAR Turkiye Enerji" şirkətinin baş icraçı direktoru Elçin İbadov** geridə qoyduğumuz ildə görülən işlər, əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verib. E.İbadov rəsmi rəqəmləri diqqətə çatdırıb: "Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Türkiyədə fəaliyyət göstərdiyi 17 il ərzində bu ölkəyə 18,5 milyard ABŞ dollarından çox sərmayə qoyub. Növbəti 5 ildə biz neft emalı və neft-kimya sahəsində yüksək səviyyədə inteqrasiya olunmuş şirkətə çevrilməyi hədəfləyirik. Şirkət bu dövrdə qaz və enerjinin fasiləsiz və səmərəli təchizatçısına çevrilmək və dayanıqlı inkişafı davam etdirmək niyyətindədir.

STAR Neft Emalı Zavodu barədə danışan E.İbadov bildirib ki, ötən il zavodun istehsal həcmi 2,5 dəfə artıb. O qeyd edib ki, STAR NEZ-də xam neft emalının həcmi 13 milyon tonu keçib.

**Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsi barədə açıqlamasında Elçin İbadov qeyd edib ki, istismara verilən gündən ötən ilin sonuna qədər Türkiyə və Avropaya 73,54 milyard kubmetr Azərbaycan qazı nəql edilib:** "Bu həcmin 30,8 milyard kubmetri Türkiyəyə, 42,74 milyard kubmetri isə Avropaya göndərilib. TANAP-ın imkanları ildə 16 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Lakin texniki cəhətdən bu rəqəmi ildə 30-32 milyard kubmetrə çatdırmaq mümkündür. Bunun üçün əlavə boru kəmərinin tikintisi tələb olunmur, boruda təzyiqi artırmaq kifayətdir, bu isə investisiya tələb edir. Avropa ölkələri qaz kəmərinin ötürücülük qabiliyyətinin 2 dəfə artırılması ilə bağlı hələ ki, qərar qəbul etməsələr də, hazırda layihə təhlil mərhələsindədir".

O ki qaldı "SOCAR Turkiye Enerji" şirkətinin ölkədəki qaz biznesinə investisiyalarının ümumi həcminə, bu 209 milyon ABŞ dolları məbləğindədir. Elçin İbadovun sözlərinə görə, hazırda Kayseri və Bursanın qazlaşdırılması həyata keçirilir. "Kayserigaz" və "Bursagaz" qazpaylayıcı şəbəkələrinə investisiyaların ümumi həcmi 209 milyon ABŞ dolları olub. "Bursagaz" qazpaylayıcı şəbəkəsinin uzunluğu 7703 kilometr, "Kayserigaz"da isə 7118 kilometrdir. Şirkətlər çox uğurlu fəaliyyət göstərir və onlar satışa çıxarılmayıb. Sadəcə bir neçə maraqlı təklif dəyərləndirilir. Ümid edirəm ki, tezliklə bu məsələ ilə bağlı qərar qəbul ediləcək. Biz bu təklifləri strateji maraqlarımıza, gələcək planlarımıza və maliyyə aspektlərimizə uyğunluq nöqteyi-nəzərindən qiymətləndiririk", - o bildirib.

**Baş icraçı direktor əlavə edib ki, şirkətin növbəti 5 il üçün strategiyasında qaz distribusiyası sahəsində genişlənmə nəzərdə tutulmayıb:** "Ona görə də əgər belə bir satış baş tutarsa, bu, şirkətin strateji planlarına zidd olmayacaq".

"Petkim" neft-kimya kompleksinin 2024-cü ildəki fəaliyyəti barədə isə **"SOCAR Turkiye"nin neft emalı və neft-kimya üzrə biznes bölməsinin rəhbəri Kənan Mirzəyev** məlumat verib. O bildirib ki, "SOCAR Turkiye Enerji" şirkəti 2008-2024-cü illərdə "Petkim" neft-kimya kompleksinin zavodlarına ümumilikdə təxminən 2 milyard ABŞ dolları məbləğində sərmayə qoyub: ""SOCAR Turkiye Enerji" şirkətinin "Petkim"in zavodlarına sərmayə qoyuluşunun illik həcmi orta hesabla 113 milyon ABŞ dolları olub. Ümumilikdə, şirkətin 2008-2024-cü illərdə bu məqsədlər üçün kapital qoyuluşu (CAPEX) təxminən 2 milyard ABŞ dolları olub. Qeyd olunan kapital qoyuluşlarından əlavə, 2018-ci və 2022-ci illərdə "Petkim"də əsaslı təmir üçün planlaşdırılmış xərclər üçün sərmayələr kompleksin zavodlarının istehsal dayanıqlığının artırılmasında mühüm rol oynayır".

K.Mirzəyev əlavə edib ki, "SOCAR Turkey" qonşu ölkənin "Petkim Petrokimya Holding"-neft-kimya kompleksinin səhmlərinin nəzarət paketinə (51 %) malikdir".

Kənan Mirzəyev həmçinin qeyd edib ki, 2025-2026-cı illərdə ilkin layihələndirmə sənədinin (FEED) hazırlanması aparılacaq. "Bu istiqamətdə aparılacaq işlər üçün təxminən 50 milyon ABŞ dolları sərmayə lazım olacaq", - deyə o qeyd edib.

Məlum olduğu kimi, Suriyada hakimiyyət dəyişikliyindən sonra bir çox sahədə olduğu kimi, neft-qaz sektorunda da bu ölkənin imkanları müzakirə olunur. Mətbuat konfransında "Yeni Müsavat" əməkdaşının Suriya ilə bağlı sualına E.İbadov belə cavab verdi: "Suriyada əmin-amanlığın bərpa olunmasını hamımızı sevindirir. Sülh və əmin-amanlığın bərpa olunması ilə ortaya iqtisadi inkişaf çıxır. İqtisadi inkişaf isə enerjiyə tələbatı artırır. Tikinti, yenidənqurma, bir sözlə, həyatın yenidən öz axarına düşməsi üçün enerji lazımdır. Enerjiyə tələbat olduğu müddətcə, "SOCAR Türkiye Enerji"yə siyasi baxımdan Türkiyənin və Azərbaycanın strateji mənfəətlərinə uyğun olan hər hansı rol verilərsə, bunu məmnuniyyətlə yerinə yetirmək bizim boynumuzun borcudur".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

# Lukaşenko yola salınır? - Belarus rəhbərinin ikibaşlı açıqlaması

## Siyasi şərhçi: “Əgər gedəcəksə, öz yerinə Rusiya ilə “vahid dövlət” prinsipini dəstəkləyən şəxsi gətirməlidir”

**Uzun müddətdir Qərb dairələrinin “diş qıcadığı” prezidentlərdən biri də Belarus lideri Aleksandr Lukaşenkodur. Ötən seçkilərdə o, əlinə avtomat alıb hakimiyyətini və daha qlobal yanaşsaq, ölkəsini qoruya bildi. 2025-ci il yanvarın 26-da Belarusda növbəti prezident seçkisidir.**

Yenə də Lukaşenkoya ciddi basqılar var və görünən budur ki, onu iqtidardan salmaq planları da mövcuddur.

Son günlər “Batka”nın həyəcanlı və maraqlı açıqlamaları da diqqət çəkir.

“Hakimiyyətdə yapışıb qalmamışam və onu sakitcə yeni nəslə ötürmək üçün hər şeyi edəcəyəm”, - deyə o, son açıqlamalarından birində deyib.

Lukaşenko hətta yeni hökumətin dövründə yaşamağa ümid etdiyini deyib: “Övladlarım yaşayacaqlar. Görmək istəyirəm necə yaşayacaqlar. Məqsədim budur. Ona görə də böyük üstünlüyümdür ki, mən hakimiyyəti zorla saxlamağa çalışmıram”.

Lukaşenko yola salınırmı? Onun ikibaşlı açıqlamasından hansı nəticələr çıxarmaq olar?

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov** “Yeni Müsavat”a bildirdi ki, Lukaşenkonun son açıqlamaları onun siyasi taleyi ilə bağlı geniş müzakirələrə yol açıb: “Belarus liderinin "hakimiyyətdə yapışıb qalmamışam və onu sakitcə yeni nəslə ötürməyə hazıram" fikri ilk baxışda demokratik yanaşma təəssüratı yaratsa da, həm daxili auditoriyaya, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış hədəfləri ehtiva edir. Lukaşenkonun bu ritorikası Qərbin təzyiqləri ilə üzləşdiyi bir dövrdə həm daxildəki narazılıqları yumşaltmaq, həm də Qərbin “avtoritar lider” tənqidlərinə cavab vermək məqsədi daşıyır. Lukaşenko əvvəllər daha qəti üsullarla hakimiyyətini qoruyub saxlamış, 2020-ci il seçkilərində kütləvi etirazlarla qarşılaşdığı zaman qəti addımlar atmaqdan çəkinməmişdi. Lakin indiki ritorikası daha yumşaq tonludur və seçkiyə yaxın dövrdə onun taktiki dəyişikliklər etdiyini göstərir. Bu, Lukaşenkonun daxili sabitliyi qorumağa çalışdığı, eyni zamanda beynəlxalq səhnədə təzyiqləri azaltmağa çalışdığı kimi izah edilə bilər.

Onun “hakimiyyəti zorla saxlamağa çalışmıram” bəyanatı ilə keçmiş təcrübələri arasındakı fərq diqqət çəkir. Lukaşenko hazırda “hakimiyyəti yeni nəslə ötürməyə hazır olduğunu” vurğulasa da, bu keçidin real olub-olmaması ilə bağlı suallar qalır. Belarus siyasi sistemində onun yaratdığı struktur və güc balansı nəzərə alınarsa, hakimiyyətin ötürülməsi prosesinin Lukaşenkonun tamamilə siyasi arenadan çəkilməsi ilə nəticələnməsi az ehtimal olunur. Daha çox ehtimal edilir ki, Lukaşenko idarəetməni güvəndiyi şəxslərə ötürməklə, ölkə siyasətində dolayısı ilə təsirini saxlamağa çalışacaq.

Digər tərəfdən, Lukaşenkonun “hökumətin yeni dövründə yaşamağa ümid edirəm” fikri onun öz gələcək təhlükəsizliyinə xüsusi diqqət ayırdığını göstərir. Bu ifadə həm onun hakimiyyətdən uzaqlaşma ehtimalını, həm də bu uzaqlaşmanın müəyyən şərtlərlə baş verə biləcəyini ehtiva edir. Əgər Lukaşenko özünə təhlükəsiz çıxış yolu təmin edə bilsə, həmçinin Rusiya ilə yaxın əlaqələrini qorumaq şərti ilə razılıq əldə etsə, onun hakimiyyətdən çəkilməsi mümkündür. Bununla belə, Lukaşenko ehtimal ki, bu prosesi öz şərtləri daxilində və nəzarəti altında həyata keçirmək istəyəcək.

Beynəlxalq amillər də bu məsələdə mühüm rol oynayır. Lukaşenkoya qarşı uzun müddətdir davam edən Qərb təzyiqləri, tətbiq olunan sanksiyalar və Belarus müxalifətinin dəstəklənməsi onun mövqeyini zəiflədir. Bununla yanaşı, Belarusun Rusiyadan asılılığı Lukaşenkonun qərarlarında əhəmiyyətli təsirə malikdir. Moskva, Belarusun sabitliyini qorumaq üçün Lukaşenkonu dəstəkləməyə davam etsə də, Rusiya üçün də bir keçid prosesinin təmin olunması strateji baxımdan əlverişli ola bilər.

Lukaşenkonun hakimiyyətdə qalması və ya uzaqlaşması Belarusun gələcəyi baxımından əhəmiyyətli nəticələrə səbəb ola bilər. Bu prosesin dinc keçməsi üçün daxili və xarici qüvvələrin balansı, həmçinin Lukaşenkonun şəxsi maraqlarının təmin olunması mühüm rol oynayacaq. 2025-ci ilin yanvarında keçiriləcək prezident seçkisi bu mənada həlledici olacaq".

**Siyasi şərhçi bir məsələyə də xüsusi diqqət çəkdi**: “Trampın yenidən hakimiyyətə gəlməsi, Aleksandr Lukaşenkonun siyasi gələcəyinə bir neçə istiqamətdən təsir edə bilər. Trampın xarici siyasətdəki prioritetləri, beynəlxalq münasibətlərə yanaşma tərzi və bəzi liderlərlə əlaqələrdə tutduğu mövqe Belarus lideri üçün həm təhlükələr, həm də fürsətlər yarada bilər. Bu təsirləri dəyərləndirmək üçün bir neçə əsas məqamı nəzərdən keçirmək lazımdır.

Birinci məqam ABŞ-ın xarici siyasət prioritetləridir. Trampın əvvəlki hakimiyyəti dövründə “Amerika birinci” prinsipi əsas götürülürdü. Bu yanaşma bəzi liderlərə qarşı sərt mövqedən qaçaraq daha çox praqmatik siyasət yürütmək deməkidi. Tramp yenidən hakimiyyətə başlayanda, Lukaşenkoya qarşı da bu cür neytral yanaşma tətbiq edilə bilər. Bu, Lukaşenkoya Qərbin təzyiqlərindən qismən yayınmaq imkanı verə bilər. Digər tərəfdən, Trampın əsas diqqətini Çinə yönəltməsi Belarusun geosiyasi mövqeyini daha da önəmli edə bilər. Bu halda Belarus, ABŞ və Rusiya arasında diplomatik balans yaratmağa çalışa bilər.

İkinci məqam Rusiyaya münasibətdir. Trampın Vladimir Putinlə münasibətləri inkişaf etdirmək istəyini nəzərə alsaq, bu, Belarus üçün iki fərqli nəticə doğura bilər. Əgər Tramp Rusiya ilə yaxınlaşmağa çalışarsa, Lukaşenkonun birbaşa təzyiq altında qalma ehtimalı azalar. Lakin əksinə, ABŞ Rusiya ilə əlaqələri gücləndirərkən Belarusun Rusiya orbitindən çıxmasına mane olmaq üçün Lukaşenkoya qarşı sanksiyaları artırarsa, bu, Belarus liderinə ciddi zərbə vuracaq.

Üçüncü aspekt Avropa ilə münasibətlərdir. Tramp administrasiyası dövründə ABŞ-ın Avropa İttifaqı ilə münasibətləri gərginləşmişdi. Bu vəziyyət davam edərsə, Belarus üçün bir fürsət yarana bilər. Lukaşenko, ABŞ-ın Avropanın dəstəyindən məhrum olan Belarus siyasətində yumşalmalar gözləyə bilər. Bununla belə, Avropa İttifaqı Lukaşenkoya qarşı sərt mövqeyini davam etdirərsə, Trampın bu mövqeyə təsir edib-etməyəcəyi qeyri-müəyyən qalır.

Son olaraq, Trampın bir sıra liderlərə qarşı qeyri-ənənəvi diplomatiyası Lukaşenko üçün yeni imkanlar açır. Tramp Lukaşenko ilə birbaşa dialoqa üstünlük verərsə, Belarusun Qərblə münasibətləri fərqli bir müstəviyə keçə bilər".

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu “Batka”nın həm Qərbi, həm də Rusiyanı zaman-zaman şantaj etdiyini söylədi:** “Belarus prezidenti Aleksandr Lukaşenko son dərəcə hiyləgər siyasətçidir. İllər boyu xarici siyasətdə ustalıqla manevrlər edib. O, bir tərəfdən Rusiyaya yaxınlaşıb, Rusiyadan narazı qalanda isə Rusiyaya eyham vuraraq deyib ki, "baxın ha, Qərblə yaxınlaşa bilərəm". Beləliklə, həm Qərbi, həm də Rusiyanı şantaj edib. Hazırda isə Rusiyanın müttəfiqi kimi çıxış edir. Qərb ona qarşı ciddi sanksiyalar tətbiq edib, xüsusən də ötən prezident seçkisindən sonra. Bir sözlə, Qərblə münasibətlər əslində alınmayıb. İndi Lukaşenkonun “yeni nəsil gəlməlidir” deməsi, məncə, diqqəti yayındırmaq xarakteri daşıyır. Çünki prezident seçkisinə az qalıb. Bu bir neçə gündə durub qəfildən inanmıram desin ki, namizədliyimi vermirəm, oğlumun, yaxud da yaxın tərəfdarlarımdan birinin namizədliyini irəli sürürəm. Son ana qədər Lukaşenko hakimiyyətdən yapışacaq və Rusiya ilə də müttəfiqliyi davam etdirəcək. Müxalifət Belarusda xeyli zəiflədilib, bir çox üzvləri həbsdədir, digərləri isə ölkədən kənardadır. Müxalifətin öz vahid namizədi ilə çıxış etmək imkanları çox məhduddur".

**Siyasi analitik Asif Nərimanlı Lukaşenkonun hakimiyyətdən getsə belə, bunu Rusiya ilə razılaşdıracağını düşünür**: “Lukaşenkonun bu açıqlamasında məqsədinin gerçəkdən hakimiyyəti təhvil vermək istədiyi olduğuna dair şübhələr yaranır. Mümkündür ki, o, hakimiyyətdə qalmaq üçün özünə ehtiyac, yeni "mən hakimiyyəti təhvil verməyə hazıram, amma xalq bunu istəmir" rəyini yaratmaq üçün bu gedişi edə bilər. Ola bilər ki, hakimiyyəti qısa müddətli ötürsün, daha sonra ölkədə müəyyən böhran yaradılsın və Lukaşenkonun qayıdışı zərurətə çevrilsin. Belə bir ssenari onun uzunmüddətli hakimiyyətdə qalması ilə bağlı yaranmış problemlərin də həllinə imkan verə bilər. Lakin Lukaşenko hakimiyyətlə bağlı qərarını mütləq Rusiya ilə razılaşdırmalıdır. Əgər gedəcəksə, öz yerinə Rusiya ilə “vahid dövlət” prinsipini dəstəkləyən şəxsi gətirməlidir. Əks təqdirdə, getməsinə imkan veriləcəyini düşünmürəm. Burada ehtimallardan biri də odur ki, Lukaşenko Rusiya ilə “vahid dövlət” layihəsini icra etmək istəmir, çünki bu, Belarusun de-fakto müstəqilliyinin itirilməsi ilə nəticələnə bilər. Lukaşenko tarixə belə düşmək istəmir, buna görə hakimiyyəti ötürərək, özünün başlatdığı prosesi başqasının icra etməsinə, məsuliyyətdən yayınmağa çalışır".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**





## İlon Mask Şoltsu axmaq, Starmeri tiran adlandırdı

**Amerikalı iş adamı İlon Mask son həftələrdə X platformasında Almaniya və Böyük Britaniya hökumətlərini sərt şəkildə tənqid edib. Musavat.com xəbər verir ki, o, bu ölkələrin qəbul etdiyi qanunları və iqtisadi vəziyyətlərini şübhə altına alıb.**

Mask hər iki ölkənin siyasi liderlərini təhqir edərək, Almaniya kansleri Olaf Şoltsu “axmaq”, Almaniya prezidentini “tiran” adlandırıb və Böyük Britaniya baş naziri Kir Starmeri “Britaniyanın təcavüzünə qoşulmaqda” ittiham edib.

Bu gərginlik 9 yanvarda daha da artacaq, çünki Mask X-də Almaniyanın “Almaniya üçün alternativ” partiyasının lider müavini Alisa Vaydellə görüşəcək. Avropa İttifaqı bu görüşü diqqətlə izləyəcəyini və parlament seçkilərinin ədalətliliyinə risk yarada biləcək halları araşdıracağını bildirib.

Kolumbiya Universitetinin professoru Alexis Vichovski Maskın bu hərəkətləri daha çox güc əldə etmək və dünyanı dəyişdirmək məqsədilə atdığını düşünür.

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

# Torpaqların kateqoriyası elektron qaydada dəyişəcək - problem çözülürmü...

## Ekspertə görə, bundan sonra bürokratik əngəllər aradan qalxacaq, vətəndaşların xərci azalacaq

**Azərbaycanda vətəndaşların, xüsusilə sahibkarların ciddi şəkildə əziyyət çəkdiyi məsələlərdən biri də torpaqların kateqoriyasının dəyişdirilməsi məsələsidir. Ekspertlər bildirir ki, xeyli torpaq sahələri var ki, onların kateqoriyası dəyişməlidir.**

Məsələn, vaxtilə Abşeronda müxtəlif ərazilər kənd təsərrüfatı təyinatlı kimi kortəbii şəkildə rəsmiləşdirilib, amma faktiki olaraq o sahələrdən kənd təsərrüfatı məqsədilə istifadə etmək, bitki, ağac əkib bitirmək mümkün deyil. Onların bir çoxunun üzərində sənaye, nəqliyyat məqsədli obyektlər tikilib, özəl mülk kimi qeydiyyata alınıb, amma sahibləri uzun illərdir onun kateqoriyasını faktiki təyinata dəyişə bilmirlər.

Habelə, ölkədə xeyli sayda yaşayış massivləri sovetlər dönəmində kənd təsərrüfatı təyinatı verilmiş ərazilərdə tikilib, indi orada böyük yaşayış massivləri var. Təyinatı dəyişə bilmədikləri üçün vətəndaşlar mülklərinə uyğun çıxarış ala bilmirlər.

Bu məsələ uzun zamandır müzakirə olunurdu. Artıq dövlət bu yöndə müəyyən addımlar atıb, "Torpaqların kateqoriyasına dair müraciətlərə baxılması" elektron xidməti istifadəyə verilib.

Bu barədə verilən rəsmi açıqlamada deyilir ki, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanının icrası çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) tərəfindən istifadəyə verilən "Torpaqların kateqoriyasına dair müraciətlərə baxılması" elektron xidməti vasitəsilə torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciətlərin qəbulu və baxılması artıq elektron qaydada "vahid pəncərə" prinsipi əsasında həyata keçirilir.

Torpaqların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciət edən subyektlər (torpaq mülkiyyətçisi və istifadəçisi olan sahibkarlar, vətəndaşlar, dövlət qurumları və bələdiyyələr) İqtisadiyyat Nazirliyinin elektron xidmətlər portalına (https://e-services.economy.gov.az/) daxil olub "Torpaqların kateqoriyasına dair müraciətlərə baxılması" elektron xidmətini seçərək və ya kateqoriya.emlak.gov.az domen ünvanına daxil olaraq müraciət edə bilərlər.

Dövlət mülkiyyətində olan torpaqlara münasibətdə aidiyyəti dövlət orqanları, bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə müvafiq bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə torpaq mülkiyyətçiləri, torpaqlar uzunmüddətli istifadədə olduğu hallarda mülkiyyətçinin yazılı razılığı ilə icarəçi və ya istifadəçi olan fiziki və ya hüquqi şəxslər bu elektron xidmət vasitəsilə müraciətlərini və müraciətin əsaslandırılmasına dair sənədlərini real vaxt rejimində ƏMDX-yə göndərə bilərlər.



Bəs elektronlaşma bürokratik əngəlləri aradan qaldıra biləcəkmi? Vətəndaşların bu problemi necə həll ediləcək?

**Daşınmaz əmlak üzrə ekspert Ramil Osmanlı mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb:** "Elektronlaşmanın bir neçə səbəbi var. Təbii ki, əsas səbəblərdən biri vətəndaş-məmur münasibətlərinin aradan qaldırılması məsələsidir. Uzun müddətdir ki, Əmlak Məsələləri Dövlət Xidməti bir çox sahələrin elektronlaşdırılması ilə bağlı addımlar atıb. Artıq 40-dan artıq xidmət növü elektronlaşdırılıb. Hətta bəzi sənədlərin qısa vaxt rejimində onlayn şəkildə həll edilməsi və elektron sənəd dövriyyəsi ilə həyata keçirilməsi prosesi gedir. Onlardan biri də vətəndaş-məmur münasibətlərinin aradan qaldırılmasıdır. İkincisi, sənədlərə baxılması, sənədlərin emal olunması və onlara rəsmi cavabların verilməsi ilə bağlı müddətin azaldılması məsələsidir. Tutaq ki, vətəndaş poçt vasitəsilə müraciət edirdi, kənddə yaşayan biri torpaq sahəsi ilə bağlı müraciət etmək istəyir, o, kənddən poçt olan rayon mərkəzinə gəlməlidir və məktubu göndərməlidir. Hələ o məktub neçə günə, müxtəlif prosedurlar vasitəsilə cavablandırılacaq. Bu, prosesin uzanmasına səbəb olurdu. İndi isə müraciətlərin elektron qaydada həyata keçirilməsi prosessual müddətdə azaldılmasına xidmət edəcək".

**Ekspert əlavə edib ki, yeniliklərdən ən vacibi bu istiqamətdə vətəndaşların xərclərinin minimuma endirilməsidir**: "Məsələn, insanların nəqliyyat xərcləri və digər vaxt itkisi mövcud idi. Bu xərclərin azaldılması məsələsi də elektronlaşmanın əhəmiyyətli bir hissəsidir. Bundan əlavə, elektron informasiya sistemi vasitəsilə vətəndaşa cavabın verilməsi mexanizmi sürətləndirilir. Hətta tikinti ilə bağlı məsələlərə artıq elektron qaydada baxılır. Ona görə də torpaqların kateqoriyasının dəyişdirilməsinin elektronlaşdırılması şəffaflığın təmin olunması baxımından çox vacibdir. Artıq elektron sənədlər müvafiq portalda arxivləşdirilir, qalır. O sənədlərə baxılmama ehtimalı yoxdur. Əgər sənəd doğrudursa, ona mənfi cavab verilmə, yaxud yubadılması ehtimalı sıfıra enir. Müvafiq icra hakimiyyəti orqanı istəsə də belə, bunu edə bilməyəcək. O ki qaldı kateroqriyanın dəyişdirilməsinə, bu da olduqca vacibdir. Tutaq ki, mənə kənd təsərrüfatı təyinatlı torpaq verilib, verilən torpaq əkinçilik üçün ayrılıb, amma torpaq sahəsinin ölçüləri, onun yerləşdiyi ərazi, su ehtiyatları əkinçiliyə imkan vermir, amma bağçılıq üçün münbit şərait var. Yəni torpağın təyinatı əkinçilik üçün olduğu üçün bağçılıqla məşğul ola bilmirəm. Artıq bundan sonra bu kateqoriyanın dəyişdirilməsi mümkün olacaq.

Hətta əsaslı tikinti ilə bağlı əlavələr də var. Qərarda minimum 5 hektardan artıq sahələrdə tikinti aparılmasına icazə verilir. Bu, torpağın daha faydalı istifadəsi və işçi qüvvəsinin daha yaxşı təşkili üçün yeni imkanlar açacaq".

**Qeyd edək ki, torpaq sahəsinin təyinatının dəyişdirilməsi üçün müraciətdən sonra dövlət orqanlarının hərəkətləri aşağıdakılardır:**

*1. Əmlak Məsələləri Dövlət Xidməti müraciətə əlavə olunan sənədlərin tamlığını və düzgünlüyünü yoxlayır.*

*2. 15 iş günü ərzində torpaq sahəsinin sərhədləri və koordinatları müəyyən edilir, yerquruluşu planı hazırlanır və müvafiq dövlət orqanları ilə razılaşdırılır.*

*3. Yerquruluşu planı, müraciət və əlavə sənədlər Nazirliyə təqdim olunur. Nazirlik bu məlumatları 10 iş günü ərzində Nazirlər Kabinetinə göndərir.*

*4. Nazirlər Kabineti qərar qəbul etdikdən sonra, iki iş günü ərzində dövlət torpaq kadastrında dəyişiklik edilir və müraciət edən şəxsə 3 iş günü ərzində məlumat verilir.*

*5. Dəyişikliklər "Daşınmaz əmlakın dövlət reyestri" qanununa əsasən qeydiyyata alınır.*

Nəticə etibarilə, Azərbaycan Respublikasının Prezidentinin 24.08.2024-cü il tarixli Fərmanı, mövcud kateqoriya problemlərinin həlli istiqamətində əhəmiyyətli bir addımdır. 2025-ci ilin yanvar ayından vətəndaşlar və digər şəxslər torpaq sahələrinin kateqoriyalarının dəyişdirilməsi ilə bağlı müraciətlər edə biləcəklər.

**❑ Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**





## Sürüşmələr aktivləşib, yeni sürüşmə sahələri yaranıb

**Ölkə ərazisində sürüşmə sahələrində aktivlik var, proses nəzarət altındadır və ciddi monitorinqlər aparılır. Bunu APA -nın sorğusuna cavab olaraq Geoloji Kəşfiyyat Agentliyinin sədri Əli Əliyev deyib.**

O bildirib ki, son dövrlər ölkə ərazisində mövsümi xarakterli intensiv atmosfer çöküntülərinin düşməsi ilə əlaqədar bəzi sürüşmə sahələrində aktivlik müşahidə edilir:

"Mövcud sürüşmə sahələrinin monitorinqi davam etdirilir. Əsas aktiv sürüşmə sahələri cənub bölgəsində, Abşeron yarımadasında, Şamaxı-İsmayıllı, qismən də Qəbələ-Ağdaş zonasındadır".

Əli Əliyevin sözlərinə görə, Bakıda lokal sürüşmə sahələrində aktivlik müşahidə edilsə də, ümumi vəziyyət nisbi stabildir: "Belə ki, Abşeron yarımadasındakı sürüşmə sahələrində, o cümlədən Nübar massivi və Masazır "Zəli gölü" sahəsində də nisbi aktivlik qeydə alınıb.

Suraxanı rayonu Zığ-1 sürüşmə sahəsində 39 və 41 saylı binaların yerləşdiyi ərazinin istinad divarlarında zəif yerdəyişmə müşahidə edilib. Eyni zamanda Zığ-1-də 3B, 3Q, 3D, 3E binalarında zəif aktivlik müşahidə edilir.

Qədim sürüşmə sahəsi hesab edilən Zığda isə son zamanlar qəbiristanlığa yaxın ərazilərdə səthdə zəif dinamik dəyişiklik müşahidə edilməkdədir.

Bundan başqa, son zamanlar atmosfer çöküntülərinin intensiv düşməsi "Badu-Kübə" MTK-nın ərazisində və Gəncə prospekti 97-də hiss ediləcək aktivlik yaradır".

**Əli Əliyev onu da qeyd edib ki, bu sahələrdə artıq müvafiq qurumlar tərəfindən prosesin inkişafının qarşısının alınması üçün layihələr hazırlanmaqdadır. Agentlik sədri vurğulayıb ki, Lerik rayonu Hamarat, Pirzəküçə və Vənədi kəndlərində aktiv lokal sürüşmə sahələri qeydə alınıb:** "Bundan əlavə, Astara rayonu ərazisində Siyakü, Şüvü, Asxanakəran, Çuvaş və Sipiyəpart kəndləri ərazisində də lokal aktivlik sahələri qeydə alınıb. Buna səbəb kimi həm ərazilərin klassik sürüşmə sahələri olması, eyni zamanda, təbii amillər - atmosfer çöküntü kütlələrinin həcminin artması hesab edilir.

Lənkəranda da lokal sürüşmə sahələrinə rast gəlinir, amma son zamanlar burada yalnız Lənkəran-Xanbulan yolunun sağ çiynində bir neçə lokal sahə qeydə alınıb. Digər sürüşmə sahələrində isə stabil vəziyyət müşahidə edilir".

2023-cü ilin son dekadasında atmosfer çöküntülərinin və texnogen amillərin təsirindən Taxtakörpü su anbarının ərazisində formalaşmış sürüşmə sahəsinin son vəziyyəti ilə bağlı danışan Agentlik sədri bildirib ki, bu sürüşmə sahəsində eni 65-70, uzunluğu 85-90 metr olan qırılma baş verib və sürüşmənin qarşının alınması məqsədilə müvafiq qurumlar tərəfindən tədbirlər planı hazırlanmaqdadır.

"Son zamanlar daha ciddi monitorinqlər apardığımız Quba rayonu ərazisində Küpçalqışlaq kəndi Qudyalçayın sol sahilində böyük sürüşmə kütləsi qeydə alınıb. Sol sahildən çay dərəsi istiqamətində irəliləyən sürüşmə yolu yararsız vəziyyətə salıb və sürüşmənin tikililərə doğru irəliləmək ehtimalı var. Proses hazırda aktiv vəziyyətdədir və mütəxəssislərimizin nəzarətindədir", - Əli Əliyev əlavə edib.

Yeni Müsavat
N 3 (8613) 9 yanvar 2025

# Rusiya şəhərləri kütləvi dron zərbələri altında...

## Bu dəfə Saratov PUA hücumuna məruz qalıb, AZAL təyyarəsi isə "kovyor" əməliyyatına görə Kazana uçmayıb - Kreml üçün daxildə cəbhə açılıb

**Rusiya şəhərlərinə dron hücumları getdikcə adi hala çevrilir. Elə bir gün yoxdur ki, Ukrayna PUA-larla Rusiya ərazilərinə hücum etməsin. Bu da hava məkanını tez-tez bağlamaq məcburiyyəti yaradır. Rusiyanın Saratov vilayətinin Engels şəhəri yanvarın 8-i gecə saatlarında kütləvi PUA hücumuna məruz qalıb. Rusiya Telegram kanalları məlumat yayıb. Məlumata görə, hücum nəticəsində neft bazası rayonunda güclü partlayışlar və yanğınlar baş verib. "Şot" Telegram kanalı yerli sakinlərə istinadla məlumat verib ki, ərazidə 40-dan çox partlayış səsi eşidilib.**



Azərbaycan Hava Yolları (AZAL) aviaşirkəti 8 yanvar 2025-ci il tarixinə planlaşdırılan Bakı-Kazan-Bakı reysini ləğv edib. Qeyd edilib ki, bu qərar Kazan üzərində "Kovyor" planı səbəbindən hava məkanının bağlanması ilə əlaqədar qəbul edilib. Ümumən, ötən sutkada Saratov vilayətində 11, Kursk və Rostov vilayətlərində 4, Belqorod və Bryansk vilayətlərində 3, Krasnodar diyarında 2, Volqoqrad vilayətində 1 və Azov dənizi üzərində isə 4 PUA zərərsizləşdirilib. Təkcə bu iki hadisədən görünür ki, Rusiya artıq təhlükəli ölkədir və Ukrayna münaqişəsi bumeranq effekti verməkdədir. Kiyevin hədəfi Rusiya daxilində destabilizasiya yaratmaq və demilitarizasiya işləri aparmaqdır. Son aylarda rusların hərbi potensialına ciddi zərbə vurulub. Xüsusən neft emalı zavodlarının, silah anbarlarının partladılması, törədilən yanğınlar nəticəsində sursatların sıradan çıxması döyüş meydanında rus ordusu üçün ciddi itkidir.

Habelə, dron hücumları ilə Ukrayna Rusiyanın "qırmızı xətt"lərini çoxdan keçdiyini nümayiş etdirir. Ukrayna Silahlı Qüvvələrinin yarım ilə yaxındır ki, Kursk vilayətində olması, general Sırskinin nəzarətdə olan ərazilərə gələrək ukraynalı hərbçiləri təltif etməsi də son dərəcə ciddi demarş, Rusiyanın reputasiyasına vurulan zərbədir. Bu, həm də suverenliyə təhdid deməkdir. Kreml lideri Rusiyanın suverenliyinə təhdid olacağı təqdirdə, nüvə silahından istifadə ediləcəyini açıqlamışdı. Lakin Kurska raket hücumlarına yalnız bir dəfə "Orşenik" hipersəs ballistik raketi ilə cavab verildi. Yeni müharibə dalana dirənib və real qalib yoxdur. Ruslar Donbasda hərbi üstünlüyə malik olsalar da, geniş ölçüdə qələbə əldə edilməyib. Üstəlik, öz şəhərlərinə dron hücumları Rusiyanı iki cəbhədə müqavimət göstərməyə məcbur edir.

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyevin "Yeni Müsavat"a bildirdiyinə görə, Rusiya müharibədən yarımcan çıxacaq, amma Ukraynanın işğal etdiyi ərazilərini özündə saxlayacaq. Partiya funksioneri savaşın 2025-ci ildə də davam edəcəyini gözləyir:** "Tramp 24 saat içində atəşkəsə nail olacağını söyləmişdi. İndi isə bildirir ki, ilin yarısına qədər müharibənin qurtacağını gözləməkdədir. Deməli, Tramp da nə zaman dayanacaqlarına əmin deyil. Bu bəyanatdan görünür ki, hətta ilin axırına qədər müharibə uzana bilər. Amma ABŞ və koalisiyanın məqsədi Rusiyanı daha çox yormaq, masada ondan güzəştlər qoparmaqdır. Nəzərə almalıdırlar ki, Ukrayna da yorğundur".

**Rusiyaya dron hücumlarına gəlincə, E.Mehdiyev inanmır ki, bununla hansısa irimiqyaslı nəticələr əldə edilə bilər:** "Bu zərbələr Rusiyanı daimi olaraq səksəkədə saxlayır. Ölkənin hava hücumundan müdafiə sistemləri davamlı olaraq hərəkətdədir. Sözsüz ki, Rusiya bu hücumlarla zərər görür. Ancaq Ukraynanın əlini gücləndirmir. Əgər dərinliklərə raket zərbələri olarsa, Rusiya ciddi sarsıntı keçirə bilər. Sadəcə, bu müharibəyə geopolitik və strateji toqquşma kimi baxmaq lazımdır. Hazırda bu dron hücumları ilə Rusiyanın zəiflədilməsi və özü haqda yaranmış mifi dağıtmaq prosesi gedir".

Qeyd edək ki, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp Rusiya lideri Vladimir Putinlə danışıqlar aparmaq istədiyini bildirib. O, bu barədə keçirdiyi mətbuat konfransında deyib. Tramp bu görüşün rəsmi olaraq vəzifəyə başladıqdan sonra ilk altı ay ərzində baş verə biləcəyini söyləyib. Siyasətçinin sözlərinə görə, danışıqların mövzularından biri Rusiya-Ukrayna müharibəsi olacaq: "Təkrar edirəm, müharibə başlamamalı idi. Sizi əmin edirəm ki, ABŞ prezidenti mən olsa idim, savaş başlamazdı". Politoloq Sergey Markov deyib ki, Ukraynadakı müharibədə ABŞ günahkardır: "Konkret olaraq, Bayden və onun administrasiyası. Bu, ABŞ-ın Ukraynadakı müharibədə günahının son dərəcə vacib etirafıdır. Qərbin üç ildir ki, müharibəyə görə Rusiyanı günahlandırmasını onun üzərindən götürür. Ukrayna heç vaxt NATO-nun üzvü olmamalıdır. Məhz belə üzvlük təhlükəsi Rusiyanı qoşun yeritməyə məcbur edib. Üstəlik, Tramp Rusiyanın bu hisslərini anladığını bildirib". **Ekspertin sözlərinə görə, Tramp Putinin görüşmək istədiyini bilir:** "Tramp özü də bunu istəyir. Ancaq tarix daha sonra iş qaydasında müəyyən edilməlidir. Bütün bunlar uğurlu danışıqlar üçün real zəmin yaradır. Trampın çıxışından yekun nəticələrə gəlincə, danışıqlar tezliklə başlayacaq, ciddi və təfərrüatlı olacaq. Ancaq hələlik rus ordusunun hücumu bütün qış və yaz boyu davam edəcək", - o bildirib.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Mirzoyan Rusiya hərbi bazasının çıxarılmasından danışdı: "Türkiyə ilə etimad..."



**Rusiyanın 102-ci hərbi bazası ilə bağlı sazişə yenidən baxılması məsələsi gündəmdə yoxdur.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan 2024-cü ilin yekunlarına dair mətbuat konfransında deyib.

Yerli jurnalistlər Mirzoyana rus sərhədçilərinin bəzi bölgələrdən çıxarıldığını xatırladıblar.

Erməni nazir isə cavabında rus sərhədçilərinin həmin bölgələrdə (məsələn, hava limanında) müvəqqəti yerləşdirildiyini bildirib.

Onun sözlərinə görə, artıq İran sərhədindəki keçid məntəqəsinə nəzarət də erməni sərhədçilərinin əlindədir. Mirzoyanın fikrincə, bu, bir tərəfdən İrana yüksək etimaddan xəbər verir.

"Türkiyə ilə açıq sərhəd və etimad olarsa, biz rus sərhədçilərini həmin bölgədən çıxarılması məsələsini müzakirə edə bilərik", - deyə Mirzoyan qeyd edib.

❑ **Musavat.com**

# Girovları azad edin, yoxsa qiyamət qopacaq - Tramp

**Yanvarın 20-də Ağ Evdə and içərək prezidentlik səlahiyyətini icra etməyə başlayacaq Donald Tramp son günlər verdiyi sərt mesajlarla gündəmi zəbt edib. "Yeni Müsavat" xəbər verir ki, daha əvvəl Kanadanın ABŞ ərazisi olduğuna eyham vuran, Panam kanalı, eləcə də Qrenlandiya adasını ABŞ-a qatmaq istədiyini açıq şəkildən ifadə edən D.Trampın hədəfində bu dəfə HƏMAS təşkilatı olub. Belə ki, keçirdiyi mətbuat konfransında Yaxın Şərqdə baş verən proseslərdən danışan Tramp HƏMAS-a israilli girovları azad etməklə bağlı xəbərdarlıq edib. "HƏMAS 20 yanvara qədər girovları azad etməsə, qiyamət qopacaq", - deyə o bildirib.**



# Suriyanın yeni lideri bu ölkəyə gedir

**Suriyanın yeni hökumətinin rəhbəri Əhməd əl-Şəra ilk xarici səfərini Türkiyəyə edəcək. Bu barədə "Yeni Şafak" məlumat yayıb. Nəşr bildirir ki, səfər yaxın günlərdə baş tutmalı idi, amma proqramdakı dəyişikliklərlə əlaqədar təxirə salınıb. Səfər zamanı əl-Şəranın Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü gözlənilir. Suriyanın yeni lideri Bəşər Əsəd rejiminin devrilməsinə verdiyi dəstəyə görə Türkiyəyə təşəkkür etmək niyyətindədir.**

YENİ MÜSAVAT
N 3 (8613) 9 yanvar 2025

# Bakalavr pilləsi ləğv edilə bilərmi - Rusiya və dünya təcrübəsi

## Ekspert: "Bu, təhsil müddətinin uzanmasına və əlavə maliyyə yükünə səbəb olur"

**Azərbaycanda bir müddətdir ki, elm və təhsildə yeni yanaşmalarla bağlı fikirlər səsləndirilir. Elm və təhsil naziri Emin Əmrullayev da dəfələrlə bu barədə çıxış edib. Yeni yanaşmalar sırasında ali təhsillə bağlı məsələlər daha aktualdır. Azərbaycanda ali təhsil prosesi xeyli çətin və mürəkkəbdir. Bunun sadələşdirilməsi və daha mükəmməl formaya keçilməsi arzuolunandır. Təhsil pillələrində dəyişiklik də bu kontekstdə müzakirə mövzusudur.**



Məsələni aktuallaşdıran səbəb odur ki, Rusiya ali məktəbləri 2026-cı il sentyabrın 1-dən yeni ali təhsil sisteminə keçir. Artıq bununla bağlı qərar verilib, Rusiyada təhsilin bakalavr pilləsi ləğv edilir. Bu ölkədə iki yeni təhsil səviyyəsi tətbiq olunacaq: əsas ali (5-6 il) və ixtisaslaşdırılmış (1-3 il).

Rusiya Təhsil və Elm Nazirliyindən bildirilib ki, cari proqramlar üzrə təhsil alan tələbələr ilkin olaraq seçilmiş plana uyğun olaraq onları bitirə biləcəklər.

Bəllidir ki, Azərbaycanda qanunuvericilik bazası, təhsil strategiyası əsasən Rusiya modelinə uyğun tətbiq olunur, bu təcrübədən yararlanılır. Bu baxımdan Rusiyadan sonra Azərbaycanda da bakalavr mərhələsi ləğv edilə bilərmi? Dünya təcrübəsi necədir?

**Mövzu ilə bağlı "Yeni Müsavat" qəzetinə danışan təhsil eksperti Kamran Əsədov deyir ki, Rusiyada bakalavr pilləsinin ləğvi və əvvəlki "spesialist" modelinə qayıdış planı həm yerli, həm də xarici tələbələr üçün bir çox dəyişikliklərə səbəb ola bilər:** "Bu qərar, təhsilin məzmunu, müddəti, diplomların beynəlxalq səviyyədə tanınması və tələbələrin karyera perspektivləri baxımından müsbət və mənfi təsirlər yaradır. Belə fundamental bir dəyişiklik diqqətlə təhlil edilməli və beynəlxalq təcrübə ilə müqayisə aparılmalıdır.

Boloniya sistemi 2003-cü ildən etibarən Rusiya təhsilinə inteqrasiya olunmuşdu. Bu sistem tələbələrə bakalavr (4 il) və magistratura (2 il) pillələri üzrə seçim imkanı təqdim edirdi və təhsilin beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin edirdi. Lakin hazırkı qərar Rusiya təhsil sistemini beynəlxalq standartlardan daha çox yerli prioritetlərə uyğunlaşdırmağı hədəfləyir. Bu, özündə bir sıra müsbət və mənfi tərəfləri ehtiva edir.

Bakalavr pilləsinin ləğvi və "spesialist" modelinə keçidin müsbət tərəfləri arasında təhsilin daha dərin və kompleks olması göstərilə bilər. "Spesialist" proqramlar 5-6 il davam edir və bu müddət ərzində tələbələr bir sahə üzrə daha geniş və ətraflı biliklər əldə edə bilirlər. Bu model, xüsusilə tibb, mühəndislik və texniki ixtisaslar kimi sahələrdə tələbələrin nəzəri biliklərlə yanaşı praktiki təcrübə əldə etməsinə imkan yaradır. Təhsil müddətinin uzun olması tələbələrə ixtisas sahələrində daha çox təcrübə toplamağa şərait yaradır ki, bu da onların yerli əmək bazarına daha yaxşı uyğunlaşmasına kömək edə bilər. Rusiya Təhsil Nazirliyi də bu modelin milli təhsil sistemini gücləndirəcəyini və ölkənin peşəkar kadr ehtiyaclarını daha yaxşı qarşılamağa xidmət edəcəyini bildirir.

Dünya təcrübəsinə nəzər saldıqda, uzunmüddətli təhsil proqramlarının effektivliyi ilə bağlı bir çox nümunələr mövcuddur. Məsələn, Almaniyada tətbiq olunan "Dual Təhsil Sistemi" tələbələrin nəzəri biliklərlə praktiki bacarıqları birləşdirməsini təmin edir. Bu sistem texniki və peşəkar sahələrdə yüksək ixtisaslı kadrların hazırlanmasına töhfə verir. Rusiyada "spesialist" modelinin tətbiqi də oxşar bir nəticə doğura bilər, xüsusən də milli səviyyədə ixtisaslı kadr ehtiyaclarının ödənilməsi baxımından".

**Ekspertin sözlərinə görə, bakalavr pilləsinin ləğv edilməsi və "spesialist" sisteminə keçidin mənfi tərəfləri də az deyil. Ən böyük problem diplomların beynəlxalq səviyyədə tanınması ilə bağlıdır:** "Boloniya sistemi tələbələrin diplomlarının Avropa və digər ölkələrdə asanlıqla tanınmasını təmin edirdi. "Spesialist" modeli isə bu standartlardan kənardır və bu, diplomların beynəlxalq səviyyədə tanınmasını çətinləşdirə bilər. Məsələn, Avropa ölkələrində "spesialist" diplomları bəzi hallarda yalnız bakalavr səviyyəsində qəbul edilə bilər, bu da tələbələrin xaricdə təhsilini davam etdirməsini və ya işə qəbul olunmasını çətinləşdirir.

Xüsusilə xarici tələbələr üçün bu dəyişiklik əlavə çətinliklər yarada bilər. Hazırda Rusiyada təxminən 300 min xarici tələbə təhsil alır və onların əksəriyyəti bakalavr proqramlarına qəbul olunub. Yeni model xarici tələbələr üçün diplomların tanınması və təhsil müddətinin uzanması baxımından əlavə maneələr yarada bilər. Xarici tələbələr Boloniya sistemindən istifadə edərək diplomlarının öz ölkələrində tanınmasını təmin edə bilirdilər. Yeni sistem isə onların təhsil planlarına və karyera perspektivlərinə mənfi təsir göstərə bilər.

Bakalavr pilləsinin ləğvi eyni zamanda tələbələrin təhsil müddətinin uzanmasına və əlavə maliyyə yükünə səbəb olur. Hazırda bakalavr təhsili 4 il, magistratura isə əlavə 2 il davam edir. "Spesialist" modeli isə tələbələrin 5-6 il ərzində təhsil almasını nəzərdə tutur. Bu, tələbələrin təhsil müddətini artırmaqla yanaşı, onların əmək bazarına daha gec daxil olmasına səbəb olur. Eyni zamanda təhsil müddətinin uzanması tələbələr və onların ailələri üçün əlavə maliyyə xərcləri deməkdir.

Müqayisə üçün, ABŞ və Avropa ölkələrində tətbiq olunan Boloniya sistemi tələbələrə daha çox elastiklik və beynəlxalq mobillik imkanı təqdim edir. Bu sistem tələbələrə bir ölkədə bakalavr təhsili alıb, digər ölkədə magistratura proqramını davam etdirmək şansı yaradır. "Spesialist" modeli isə bu cür beynəlxalq inteqrasiyanı məhdudlaşdırır və tələbələrin yalnız yerli əmək bazarına yönəlməsinə səbəb olur. Bu, qlobal əmək bazarında rəqabət qabiliyyətinə mənfi təsir göstərə bilər".

**Ekspert deyir ki, tələbələrin hazırkı vəziyyətdə ən böyük narahatlığı onların təhsil prosesinə və gələcək planlarına olan təsirdir:** "Hazırda bakalavr pilləsində təhsil alan tələbələrin başladığı proqramı bitirmək imkanı yüksək ehtimalla qorunacaq. Bu tələbələr bakalavr diplomu alacaq və onların diplomları Boloniya standartlarına uyğun olaraq beynəlxalq səviyyədə tanınacaq. Yeni qəbul olunan tələbələr isə "spesialist" proqramlarına daxil ediləcək və bu dəyişiklik onların təhsil müddətini və karyera perspektivlərini birbaşa təsir edəcək.

Nəticə olaraq, bakalavr pilləsinin ləğvi və "spesialist" sisteminə keçid Rusiya təhsil sistemi üçün həm imkanlar, həm də çətinliklər yaradır. Bu model tələbələrin daha dərin biliklər əldə etməsini və milli kadr hazırlığını gücləndirə bilər. Lakin beynəlxalq səviyyədə tanınma və tələbələrin qlobal əmək bazarına inteqrasiyası baxımından ciddi problemlər ortaya çıxa bilər. Xarici tələbələr üçün bu dəyişiklik əlavə hüquqi və akademik maneələr yarada bilər, bu da Rusiyada təhsilə olan marağın azalmasına səbəb ola bilər".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**



# Ramazan ayı martın 1-də başlayacaq

**Azərbaycanda Ramazan ayı martın 1-də başlayacaq.**

Musavat.com-un əldə etdiyi məlumata görə, ilk Qədr (Əhya) gecəsi martın 18-i, digərləri isə martın 20-si, 22-si və 26-sı olacaq.

Martın 30-u və 31-i Fitr (Ramazan) bayramıdır. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, martın 30-u və 31-i Azərbaycanda Ramazan bayramı kimi qeyd olunacaq. Həmin günlər şənbə və bazara təsadüf etdiyindən ardıcılıq olaraq dörd gün - martın 30-u, 31-i, aprelin 1-i və 2-si qeyri-iş günləri olacaq.

Qeyd edək ki, mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində iftar süfrələri açmaq, yardım və xeyriyyəçilik etmək, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində köməklik göstərmək Allah nəzərində bəyənilən əməllərdəndir. Quran tilavəti, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm-irfan və ibadətlə məşğul olmaq bu ayda ən böyük savab əməllərdən sayılır.

**Elan:**

**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Sultanov Əli Həbib oğluna verilmiş 458526 nömrəli ovçuluq vəsiqəsi və Daxili İşlər Nazirliyi tərəfindən verilmiş MP-155 markalı, 1315501662 nömrəli ov tüfənginin sənədi itdiyi üçün etibarsız sayılır.**

***

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Sosial Xidmətlər Agentliyinin Qazax-Tovuz Regional Filalı tərəfindən Tanrıverdiyeva Sima Məhərrəm qızına 16.02.2022-ci ildə verilmiş 006681 nömrəli Şəhid ailəsinin üzvü vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən İsgəndərov Əsgər Rafiq oğlunun adına verilmiş hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.**

# YENİ MÜSAVAT

## Son səhifə

N 3 (8613) 9 yanvar 2025

Yanvar


## Bunları bilirsinizmi?

* Tez-tez quruyan və qabıq verən dodaqlara 1%-li bor turşusu məhlulu çəkir və ya bitki yağı sürtürlər.
* Yanmış yerə yumurta ağında isladılmış əski qoyurlar. Bu ağrını azaldır və yara daha tez sağalır. Yanmış yerə tünd çay, marqanez məhlulu da qoymaq faydalı olur.
* Yorğunluğu götürmək üçün ayaqları duzlu suyla vanna etməkdə fayda var.
* Çatlamış dərini qəhvə xıltı ilə ovxaladıqda əllərin dərisi yumuşaq və elastik olur.
* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.
* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridə olan ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərinin belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxamsına şərait yaratmaq üçündür.
* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.
* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.
* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini ılıq suya töküb ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir-neçə dəfə etmək lazımdır.



## Çində müharibələrin xarakterini dəyişə biləcək saat yaradılıb

**Çin Milli Metrologiya İnstitutu gələcək hərbi münaqişələrin gedişinə əhəmiyyətli təsir göstərə biləcək innovativ "NIM-TF3" sezium atom saatını təqdim edib. Oxu.Az-ın məlumatına görə, bu barədə "South China Morning Post" (SCMP) qəzeti məlumat yayıb. Müasir müharibələr yüksəkdəqiqlikli xronometraj sisteminə əsaslanır və bu texnologiya bir-birindən minlərlə kilometr məsafədə yerləşən radarların sinxron işləməsini təmin edir. Bu isə görünməz təyyarələri səmərəli şəkildə aşkar etməyə və izləməyə imkan verir.**

Qeyd olunur ki, bu mexanizmi asanlıqla hərəkət etdirmək və hətta döyüş meydanında istifadə etmək mümkündür. NIM-TF3 sezium atom saatının hündürlüyü 1.5 metr olub, kiçik soyuducu ölçüsündədir. Onu hərbi yük maşınına quraşdırmaq olar, nahamar yollarla və çətin şəraitdə uzunmüddətli daşınmadan sonra belə dəqiq qalır, saniyənin kvadrilyonda birindən az xronometraj qeyri-müəyyənliyi nümayiş etdirir. Əvvəllər bu cür yüksək dəqiqliyə malik atom saatının yaradılması qeyri-mümkün hesab edilirdi, çünki onlar ətraf mühitin təsirindən qorunan otaqlarda yerləşdirilməli idi. Bu cür qurğular, həmçinin radioelektron mübarizə siqnallarının keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırır və böyük həcmdə məlumatın ötürülməsini asanlaşdırır.

Çin Milli Metrologiya İnstitutu tərəfindən hazırlanan atom saatı peşəkar xidmət tələb etmədən uzun müddət müstəqil şəkildə işləyə bilir.

# Bir metrdən uzun dırnaqları olan qadın



**TikTok sosial şəbəkəsində "nailsbyry" istifadəçi adı ilə tanınan və viral olan Maryah adlı qadın qeyri-adi uzun taxma dırnaqları ilə gündəlik həyatını necə yaşadığından danışıb. Bədəni qədər uzunluğundakı dırnaqlarında 156 bəzək olan Maryah 4 övladına baxmaqda, yemək bişirməkdə çətinlik çəkmədiyini bildirib. Dırnaq ustası olan qadın mətbəxdə yemək qarışdırdığı zaman belə dırnaqlarından istifadə etdiyini söyləyib. "Yeni doğulan körpəmə belə bu dırnaqlarla baxa bilirəmsə, başqa nə edə bilmərəm ki?", - deyə o bildirib.**

"İnsanlar həmişə dırnaqlarımın ağır olub-olmadığını və işlərimi necə gördüyümü soruşurlar. Əslində bir müddət sonra barmaqlarınız güclənir və heç bir ağırlıq hiss etmirsiniz", - deyə Maryah qeyd edib. Qadının bununla bağlı videosu 1.3 milyon dəfədən çox izlənilib. Videonu izləyənlər onun dırnaqlarının altındakı tünd rəngdə maddəni görüb və gigiyena ilə bağlı suallar ünvanlayıblar. Maryah bu suallara dırnaq təmizləmə fırçası və sabundan istifadə etməklə dırnaqlarını necə təmizlədiyini göstərən video ilə cavab verib. O, şəxsi gigiyenasına necə əməl etməsi sualına da aydınlıq gətirib. Bildirib ki, lazım gəldikdə, bacısından kömək alır.

## Elm adamlarını şoka salan hadisə



**Tibb ictimaiyyəti Almaniyada baş vermiş nadir bir hadisədən heyrətə düşüb. Belə ki, 53 yaşlı cərrah əməliyyat zamanı xəstəsindən nadir xərçəng növü - fibroz histiositoma ilə yoluxub. Bu, xərçəng xəstəliyinin pasiyentdən həkimə ötürülməsinin sənədləşdirilmiş ilk halıdır. Bu nadir hadisə barədə "New England Journal of Medicine" elmi jurnalında məqalə dərc olunub.**

Bildirilir ki, almaniyalı cərrah yumşaq toxuma xərçəngi olan xəstəyə drenaj qoyulması zamanı əlini kəsib. Yaranın dərhal işlənməsi və sarğılanmasına baxmayaraq, beş ay sonra kəsik yerində bərkimə əmələ gəlib. Aparılan araşdırmalar göstərib ki, cərrahın şişi bədxassəli olub və genetik cəhətdən xəstənin xərçəngi ilə eyni olub. Fibroz histiositoma - hər il təxminən 1 400 nəfərdə diaqnoz qoyulan nadir bədxassəli şiş növüdür. Alimlər qeyd edirlər ki, bu, nadir haldır, çünki immun sistemi adətən yad toxumaları rədd edir. Lakin cərrahda "qeyri-effektiv antişiş immun reaksiyası" inkişaf edib ki, bu da xəstənin şiş hüceyrələrinin yaşamasına imkan verib.

Əməliyyat olunan xəstə cərrahi müdaxilənin uğurlu keçməsinə baxmayaraq, ağırlaşmalar səbəbindən bir neçə ay sonra vəfat edib. Cərraha əməliyyat və antişiş terapiyası aparılıb ki, bu da xərçəngin yayılmasının qarşısını alıb. Ekspertlər vurğulayırlar ki, xərçəngin tibb işçilərinə keçməsi halları son dərəcə nadirdir və dəqiq statistika yoxdur. Lakin məlumdur ki, bəzi xərçəng növlərində - məsələn, süd vəzi, ağciyər, qaraciyər və digər orqanların xərçəngində xərçəng hüceyrələri cərrahi müdaxilələr zamanı yayıla bilər. Buna görə də həkimlər əməliyyatlar zamanı bütün təhlükəsizlik tədbirlərinə ciddi riayət etməyə çağırırlar.



## İki məhbus Baydenin "əfv"ini qəbul etmədi

**ABŞ-də Co Bayden tərəfindən edam cəzası ömürlük həbslə dəyişdirilən iki cinayətkar ölüm hökmünün ləğvinə qarşı çıxıb. Onlar müvafiq sənədləri imzalamaqdan imtina ediblər. Bu barədə "NBC News" məlumat yayıb. Məhbusların vəkilləri Baydenin onlara qarşı verdiyi əmrin ləğv edilməsini tələb edərək məhkəməyə müraciət ediblər. "NBC News" izah edir ki, ölüm cəzasına məhkum edilmiş şəxslərin müraciətləri ədalət mühakiməsinin mümkün səhvlərindən sığortalanmaq üçün həmişə daha diqqətlə nəzərdən keçirilir. Xatırladaq ki, dekabrın sonlarında Co Bayden federal məhkəmələrdə edam cəzasına məhkum edilmiş 40 nəfərdən 37-nin ölüm hökmünü şərti azadlığa buraxılma ehtimalı olmadan ömürlük həbslə əvəz edib.**

## İsti vanna qəbul etməyin insan sağlamlığına təsiri

**Mütəxəssislər isti vannanın insan vəziyyətinə müsbət təsir etdiyini müəyyən ediblər. Bu prosedur stressi aradan qaldırmağa kömək edir və ürək xəstəliyinin inkişaf riskini azaldır. 30.000 yaponun sağlamlığını izləyən elm adamları hər gün isti vanna qəbul edən insanların ürək-damar xəstəliklərinə tutulma riskinin 28, insult riskinin isə 26 faiz azaldığını müəyyən ediblər. Eyni zamanda, ümumiyyətlə, isti vanna qəbul etməyənlərlə həftədə bir dəfə bunu edənlər eyni nəticəni göstəriblər. Yəni, hamamın sağlamlığınızı həqiqətən gücləndirməsi üçün onu vaxtaşırı deyil, mütəmadi olaraq qəbul etməyə dəyər.**

Başqa bir araşdırmanın nəticələri göstərib ki, isti vanna qəbul edən insanlar daha az depressiv pozğunluq əlamətləri yaşayırlar. Mütəxəssislərin fikrincə, bu, isti suyun rahatlaşdırıcı təsiri ilə bağlıdır. Buna görə də depressiv düşüncələrə meyilli olan hər kəsə yatmazdan əvvəl ılıq vanna qəbul etməsi tövsiyə olunur.

## Amerikada cinsi oriyentasiyasına görə tərxis edilən 30 mindən çox veteranla bağlı qərar verildi



**ABŞ-da silahlı qüvvələrdən tərxis olunan ordunun veteranları fəxri statusa yüksəldiləcəklər. Bu barədə "Reuters" nəşri Pentaqona istinadən məlumat verib. Söhbət keçmişdə cinsi oriyentasiyasına görə ABŞ ordusundan tərxis edilmiş 30 mindən çox veterandan gedir. Təqaüdçü statusunun fəxri dərəcəsinə yüksəldilməsi onların tibbi və digər imtiyazlar almaq hüququnu təmin edəcək. Nəşr xatırladıb ki, bu qərar 2023-cü ildə açılmış kollektiv iddianın nəticəsi kimi verilib. İddiaçılar bildiriblər ki, ABŞ Silahlı Qüvvələrinin rəhbərliyi hərbi qulluqçuların lazımi proses və bərabər müdafiə ilə bağlı konstitusiya hüquqlarını pozublar.**

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500